AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
6 MAY 2018-ci il BAZAR № 101 (6134) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 6, maddə 480; 2014, N 7, maddə 773) 13.2-1-ci maddəsində "Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış" sözləri "Vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı" sözləri ilə əvəz edilsin və həmin maddədən "birbaşa və ya" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 8, maddə 603; 2006, N 6, maddə 482; 2007, N 8, maddə 745; 2008, N 3, maddə 154; 2009, N 12, maddə 948; 2011, N 11, maddə 983; 2012, N 6, maddə 509, N 7, maddə 668, N 11, maddə 1053; 2013, N 6, maddələr 607, 623, N 7, maddə 791, N 12, maddə 1484; 2014, N 1, maddə 7, N 2, maddə 97, N 6, maddələr 597, 604; 2015, N 3, maddə 255; 2016, N 4, maddə 645, N 6, maddə 990, N 7, maddə 1244, N 11, maddələr 1770, 1775; 2017, N 5, maddə 738, N 6, maddə 1037, N 10, maddə 1772, N 11, maddə 1954, N 12, I kitab, maddə 2235; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD və 1000-VQD nömrəli qanunları) 8.0.10.2-ci maddəsində "yaşayış evləri" sözləri "tikinti obyektləri" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 9, maddə 838; 2014, N 7, maddələr 766, 787, N 10, maddə 1165; 2015, N 5, maddə 503; 2016, N 11, maddə 1773, N 12, maddə 2010; 2017, N 5, maddə 755, N 6, maddə 1019, N 6, maddə 1043; Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 48.1-ci maddənin birinci cümləsində "yaşayış evlərinin" sözləri "tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin.

**2.** 75.10-cu maddədə "10 gün" sözləri "3 iş günü" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1061-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1061-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 may 2018-ci il.**

## "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1066-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1066-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 may 2018-ci il.**

## "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1059-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1059-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 may 2018-ci il.**

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752, N 11, maddə 1976) aşağıdakı məzmunda 38.3-cü maddə əlavə edilsin:

"38.3. İnzibati aktla (inzibati aktın qəbul edilməsindən imtina ilə) bağlı şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma verildiyi halda bu Məcəllənin 38.1-ci və 38.2-ci maddələrində nəzərdə tutulmuş iddia müddətlərinin axımı aşağıdakı vaxtadək dayandırılır:

38.3.1. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun şikayət üzrə qəbul etdiyi qərardan (verdiyi yazılı cavabdan) şikayət verilməsi üçün "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlər bitənədək (müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma şikayət verilmədiyi halda);

38.3.2. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun qərarından (yazılı cavabından) müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma şikayət verildiyi halda isə həmin qurumun şikayət üzrə qəbul etdiyi qərar (verdiyi yazılı cavabı) şikayətçiyə təqdim edilənədək.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 790) aşağıdakı məzmunda 2.1-1-ci, 2.1-2-ci və 2.1-3-cü bəndlər əlavə edilsin:

"2.1-1. həmin Məcəllənin 38.3-cü maddəsinin birinci abzasında, 38.3.1-ci (hər iki halda) və 38.3.2-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.1-2. həmin Məcəllənin 38.3-cü maddəsinin birinci abzasında, 38.3.1-ci (birinci halda) və 38.3.2-ci (birinci halda) maddələrində "qurum" dedikdə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının apellyasiya şuraları nəzərdə tutulur;

2.1-3. həmin Məcəllənin 38.3.1-ci (ikinci halda) və 38.3.2-ci (ikinci və üçüncü halda) maddələrində "qurum" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası nəzərdə tutulur;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 may 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Alman Kiçik və Orta Müəssisələr Assosiasiyası Zati-alinizin rəhbərliyi ilə Azərbaycanda siyasi sabitlik, rifah və iqtisadiyyatın bütün sahələrində daha dinamik inkişaf görür.

İcazə verin, prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi bir daha təbrik edim. Bu xoş fürsətdən istifadə edərək ölkənizin davamlı inkişafı, xalqınızın xoşbəxtliyi və rifahı üçün ən xoş arzularımı Zati-alinizə çatdırmaq istərdim.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Markus Jerger**
**Alman Kiçik və Orta Müəssisələr Assosiasiyasının baş direktoru**

# Əfsanəyə çevrilən dahi şəxsiyyət



**Aydın QASIMOV,**
**Milli Aviasiya Akademiyasının iqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor.**

**Yüzilliklər boyu müstəqillik amalları uğrunda mübarizə aparan Azərbaycan xalqı bu yolda çoxlu çətinliklərə düçar olsa da, neçə-neçə şəhidlər versə də, əqidəsindən, məqsədindən dönmədi, nəhayət, keçən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti adlı demokratik, hüquqi, azad dövlət qurdu. Bu dövlətin qurucuları "Bir kərə yüksələn bayraq bir daha enməz!"-deyə əbədiyyət bayrağını qaldırdılar və 70 illik totalitar rejim onu xalqımızın yaddaşından silə bilmədi. Müasir Azərbaycan AXC-nin varisidir. Bu qərarı verən isə xalqımızın böyük oğlu, müdrik siyasi xadim Heydər Əliyevdir. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini Azərbaycan xalqı böyük təntənə ilə qeyd edəcəkdir. Bu böyük xalq bayramı ilə bağlı Azərbaycan Respublikası Prezidentinin xüsusi sərəncamı da vardır.**



Min illər boyu insanlar azadlıq, istiqlaliyyət uğrunda mübarizə aparmış ədalətli ictimai quruluş, ədalətli cəmiyyət, ədalətli hökmdar arzusunda olmuşlar. Böyük Nizaminin əsərlərinin əksəriyyəti ədalətli cəmiyyət, ədalətli hökmdar istəklərinə həsr edilmişdir. Nizami səbri və təmkini mövcud ziddiyyətlərin aradan qaldırılmasında mühüm şərtlərdən biri hesab edir, məhz ədalətli və müdrik hökmdarın zülmü məhv edəcəyinə, həqiqi azadlığın bərqərar olacağına, hüquqsuzluğun aradan qalxacağına ümid edirdi. Dünyada insan üçün azadlıqdan, dövlət üçün müstəqillikdən böyük nemət yoxdur. Əgər azad insan müstəqil dövlətdə yaşayırsa, bu, əvəzolunmaz xoşbəxtlikdir. Məhz misilsiz idarəetmə istedadına malik olan ümummilli liderimiz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə quruculuğun, sosial-iqtisadi inkişafın, ictimai-siyasi sabitliyin, dövlətçiliyin təminatçısı olmuş, ən ağır məqamlarda Azərbaycanın mənafeyi naminə xilaskarlıq missiyasını yerinə yetirmişdir.

Azadlıq istək və arzuları heç vaxt insanların zəkasından silinməmiş, bu istək və arzu zaman-zaman insanların qəlbində alovlanmış, azadlıq mücadiləsinə çevrilmiş, əsrlər boyu davam etmişdir.

XX əsrin sonlarında Sovetlər birliyinin dağılması bu birliyin tərkibində olan respublikaların müstəqillik arzularını reallaşdırdı. Müstəqillik yolunda inamla irəliləyən Azərbaycan 30 ildən az bir müddət ərzində demokratik, iqtisadi cəhətdən qüdrətli, siyasi nüfuzlu bir dövlətə çevrildi. Müstəqil Azərbaycan dövlətinin ayaq üstə əzmlə dayanaraq inkişaf etməsi və bugünkü səviyyəyə yüksəlməsi məhz Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin misilsiz xidməti idi. Qədim yunan filosofu Platon demişdir ki, "dövləti məhz ədalət və həqiqət tərəfdarları olub, dünyanın aldadıcı özəlliklərinə aldanmayan böyük şəxsiyyətlər idarə etməlidirlər". Ədalətin, müdrikliyin və hakimiyyətin bir yerdə - vəhdətdə olacağı gün insanlar xoşbəxtliyə qovuşacaqdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə tarixdə əbədilik qazandıran ən başlıca amil də məhz onun Azərbaycan miqyasında bu üç dəyəri bir araya gətirməyi bacarması olmuşdur.

Bir çox insanların səbatsızlığı, nadanlığı onda idi ki, onlar ulu öndər, dahi insan, böyük şəxsiyyət olan Heydər Əliyevin möhtəşəmliyini, cahanşümulluğunu görə bilmirdilər. Bəlkə də səbəb ona bu qədər yaxın olmağımızdır. Məhəmməd Peyğəmbərlə bir dövrdə yaşamış bir çoxları, o cümlədən bəzi yaxın qohumları da onun qeyri-adi insan olduğunu, gələcəyin peyğəmbəri olacağını nə görə bilir, nə də qəbul edə bilirdilər. Xalqların taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərə layiq olduqları əsl qiyməti vermək, onların vətən və xalq naminə göstərdiyi misilsiz xidmətləri obyektiv dəyərləndirmək son dərəcə məsuliyyət tələb edən məsələdir. Belə gerçəklik fonunda qələmə alınan ən xoş xatirələr, siyasi, elmi, politoloji fikir və mülahizələr də Azərbaycan xalqının ulu öndəri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin böyük insan və fövqəladə şəxsiyyət kimi böyüklüyünün miqyası barədə dolğun təsəvvür yaratmaqda acizdir.

Heydər Əliyevin şəxsiyyəti əzəmətli olduğu kimi, onun əməlləri də əzəmətlidir. Respublikamıza rəhbərlik etdiyi müxtəlif dövrlərdə Azərbaycanın güclü sənaye və kənd təsərrüfatı ölkəsinə çevrilməsi, böyük sənaye müəssisələrinin yaradılması məhz onun çoxillik zəhmətinin nəticəsidir. Şərəfli və mənalı ömür yolunun 34 ilini xalqının nicatına həsr etmiş ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququnu qazanmışdır. XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan Heydər Əliyevin siyasi fenomeni xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Tarixin ən sərt və çətin sınaqlarından keçməklə əxz etdiyi milli dövlətçilik ənənələrini məhz ulu öndərin rəhbərliyi altında vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanmış xalqımız, həm də müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarmışdır. Heydər Əliyevin siyasi fəaliyyətində ağır anlar, gərgin məqamlar çox olsa da, 1993-cü ilin iyununda Azərbaycanın düçar olduğu təhlükəli və gərgin vəziyyət onu həyatın, bəlkə də, ən ağır sınağı ilə üzləşdirmişdi. Ölkədə hakimiyyət böhranı yaranmış, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərc-mərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması dərinləşmiş, qanunçuluq və hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Təsadüfi deyil ki, böyük öndərimizin rəhbərliyi altında hakimiyyət böhranı qısa müddətdə tam aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər zərərsizləşdirildi. Bütün bunlar Azərbaycanda ardıcıl, sistemli hüquqi dövlət quruculuğu və vətəndaş hakimiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı verdi. Tarix bir daha sübut etdi ki, yalnız qüdrətli şəxsiyyətlər xalqı öz arxasınca apara, ən mürəkkəb proseslərdən baş çıxara, onu idarə edə və cəmiyyətin iradəsinə uyğun məcraya yönəldə bilər. Onun 1993-cü ildən 2003-cü ilədək respublikamızda gördüyü işlər bir neçə insan ömrünə və bütöv dövlətlərin tarixinə yetəcək səviyyədədir. Bu illər siyasi məndərəcəsinə, ictimai məzmununa, mahiyyətinə görə son dərəcə zəngin, əlvan və çoxtərəflidir.

Geridə buraxdığımız 27 ilin 10 ili ulu öndərin adı ilə bağlıdır. Bu on il Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik məsələlərin həlli ilə zəngin olmuşdur. Tarix üçün az, bəlkə də, çox qısa bir müddət sayılacaq bu dövrdə sivil dövlətçilik ənənələrinin əsasını təmin edən taleyüklü və çox böyük məsələlər həll edilib. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı on ildə ölkənin düyünə salınmış çoxsaylı problemlərini həll etməklə bərabər, Azərbaycanın sonrakı illər üçün də strateji inkişafının əsas istiqamətlərini müəyyən etdi. Ölkə inamla, davamlı surətdə inkişaf etmiş ölkələr səviyyəsinə doğru gedir, xüsusilə 2004-cü ildən ötən dövrdə yüksək tempə və sürətli yüksəlişə nail olunmuşdur. Azərbycan Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransındakı nitqində 14 ildə böyük nailiyyətlər qazanıldığı barədə demişdir: "Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir". Bu inkişaf davamlı aparılan islahatlar, yaradılan hüquqi baza və dövlətin maddi dəstəyi ilə əldə edilmişdir. Təsadüfi deyil ki, ötən 2017-ci ildə də Azərbaycanda dərin iqtisadi islahatlar dövrü olmuşdur. Həm Dünya Bankı, həm də Avropa Yenidənqurma və İnkişaf Bankı gedən proseslərə yüksək qiymət vermiş, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yerdə qərarlaşmış, MDB məkanında isə öz liderlik mövqeyini daha da möhkəmləndirmişdir. Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

İqtisadiyyatın dayanıqlığını təmin etmək və dünya bazarlarında möhkəm və nüfuzlu mövqeyə malik olmaq üçün müasir tələbləri ödəyən müxtəlif çeşidli sənaye sahələrinin yaradılmasına və dinamik inkişafına ciddi diqqət yetirilir. Hazırda istehsalın ən yeni texnologiyalarla təşkili dünya standartlarına uyğun məhsul istehsalına imkan verib. Nəticədə ümumi daxili məhsullara dünya bazarında tələbat artır. 2017-ci ildə hüquqi və fiziki şəxslər dünyanın 187 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 116 ölkəyə məhsul ixrac olunmuş, 179 ölkədən idxal olunmuşdur. Əvvəlki illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 12,3 faiz, real ifadədə isə 10,7 faiz, o cümlədən ixrac 7,1 faiz, idxal 16,1 faiz artmışdır. Belə ki, faktiki qiymətlərlə ölkədən 18,1 faiz çox məhsul ixrac olunmuş, 3,5 faiz çox məhsul idxal edilmişdir.

Qısa bir zaman kəsiyində müstəqil dövlət üçün zəruri olan bütün vasitələri Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev yaratdı. Təsadüfi deyil ki, böyük öndərimizin rəhbərliyi altında hakimiyyət böhranı qısa müddətdə tam aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər zərərsizləşdirildi. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli hüquqi dövlət quruculuğu və vətəndaş hakimiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı verdi. Tarix bir daha sübut etdi ki, yalnız qüdrətli şəxsiyyətlər xalqı öz arxasınca apara, ən mürəkkəb proseslərdən baş çıxarmaq və onu idarə etməklə cəmiyyətin iradəsinə uyğun məcraya yönəldə bilər. O, Azərbaycan xalqının yüz illiklər boyu qazandığı sərvəti dəyərləri qoruyub saxlaya, onu çox böyük təhlükələrdən hifz edə bildi və eyni zamanda da, müstəqil dövlətçiliyin özülünü elə qurdu ki, sonrakı illərin ən təhlükəli məqamlarında belə yeni müstəqillik qazanmış Azərbaycan dövləti tab gətirə bilsin, ağır sınaqlara və çətinliklərə sinə gərə bilsin.

Heydər Əliyevlə Azərbaycan xalqı arasında monolit birlik ölkədə iqtisadi, siyasi, konstitusiyon islahatların aparılmasında mühüm rol oynadı. Bəs bu monolit birliyin əsasında nə dayanırdı? Böyük siyasi xadim olan Heydər Əliyev Azərbaycanda vətəndaş birliyi ideyasının əsaslarını yaratdı, həm ölkə daxilində, həm də xarici ölkələrdə azərbaycançılıq ideyalarının yaradılmasının təbliğatçısına çevrildi. İnsanların əzm və iradəsini səfərbər etməyi bacardı. Məhz belə bir harmoniya ədalətli cəmiyyət, hüquqi dövlət ideyasını arzulardan həqiqətə çevirdi: Ulu öndər Azərbaycanda dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində qanunla tənzimlənməsində, bütün insani dəyər və azadlıqların maksimum dərəcədə qorunmasında, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin yaradılmasında, demokratik ənənələrin ictimai şüurda möhkəmlənməsində misilsiz xidmətlər göstərmişdir. Ulu öndər bütün Azərbaycan xalqına çatdırdı ki, dövlət o vaxt daimi yaşaya, əbədi ola bilər ki, bunu bütün xalq istəsin. O, xüsusi olaraq qeyd edirdi ki, müstəqil dövlətin varlığı üçün birinci vacib şərt xalqın iradə və əzminin mövcudluğu, habelə həmin məziyyətlərin səfərbər edilərək yeganə doğru məcraya yönəldilməsidir. Bu miqyasına və mahiyyətinə görə çox qlobal bir məsələ idi və böyük şəxsiyyət həmin işi həyata keçirməyi bacardı. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin təməlində duran xalqın istək və arzularını, iradə və əzmini mütərəqqi dövlətçilik ideyası ətrafında səfərbər etdi, dilindən və millətindən asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində yaşayan bütün insanların həyat maraqlarını vahid maraq-dövlətçilik ideyası ətrafında birləşdirə bildi. O, Azərbaycan Respublikasına rəhbərlik etdiyi on il ərzində Azərbaycan dövlətinin gələcək inkişaf yollarını müəyyənləşdirdi; bu demokratik inkişaf və hüquqi dövlət quruculuğu, azərbaycançılıq və vətəndaş həmrəyliyi idi.

Ümummilli lider daxildəki radikal qrupları zərərsizləşdirməklə məsələnin bir qismini həll etdi. Bir neçə il siyasət meydanında at oynadanlar artıq arxa plana keçmişdi və xalq onları rəhbər kimi qəbul etmirdi. Lakin ulu öndər siyasi-ictimai durumu çox gözəl başa düşürdü və ona görə də paralel olaraq siyasi mühitdə ciddi islahatlar aparırdı. Ulu öndər Azərbaycanda vətəndaş qarşıdurmasınadək yüksələn hakimiyyət uğrunda mübarizəni sivil müstəviyə yönəltdi. O, müdrikcəsinə öyrətdi ki, hakimiyyət uğrunda mübarizəyə qoşulmaq olar, lakin bu mübarizə sivil, demokratik, dinc yollarla aparılmalıdır, qrup istəyi bu işdə başlıca kriteriya olan xalqın istəyi ilə üst-üstə düşməlidir. O, hakimiyyətə gəlməyin seçki yolunu ictimai şüura yeritməklə həmin vaxtdan mövcud olmuş naqis ənənələrə birdəfəlik son qoydu.

İctimai-siyasi sabitlik cəmiyyətin siyasi təfəkkürünə nizam-intizam yaradırdı. Hər kəsə belə həmin bir inam aşılayırdı ki, azərbaycanlılar öz ölkəsində siyasi sabitlik yarada bilərlər. Bu proses günbəgün daha geniş vüsət alırdı. Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarını yaratdı. Bunun üçün ən vacib şərtlərindən biri dövlətin qanunlarını işləyib hazırlayan, xalqın iradəsini özündə əks etdirən müstəqil qanunverici orqanın, xalqın təhlükəsizliyini təmin edə biləcək müstəqil milli ordunun formalaşması, cəmiyyət həyatında vətəndaş-dövlət, habelə vətəndaşlararası münasibətləri tənzimləyəcək qanunların işlənib hazırlanması və onların həyata keçirilməsi və onların həyata keçirilməsi praktikasının yaradılması idi.

Ulu öndər Azərbaycanın sivil və demokratik inkişafının fundamental məqam və istiqamətlərini hüquqi aktlar vasitəsi ilə tənzimləyən əsas Qanun-Konstitusiya quruculuğu ilə məşğul oldu və bu işi müvəffəqiyyətlə başa çatdırdı.

Heydər Əliyev Azərbaycanı inkişaf etdirmək, sivil dövlətlərarası münasibətlərə qoşulmaq və dünyaya tanıtmaq üçün Avropaya inteqrasiya xəttini seçdi və bu istiqamətdə həm hüquqi, həm də siyasi-iqtisadi islahatların əsasını qoydu. Ötən müddətdə bütün qanunvericilik praktikası dəyişdirildi, dövlət idarəçiliyi sistemi təkmilləşdirildi, maliyyə-iqtisadi institutlar dünya standartları səviyyəsinə gətirildi. Bu sahədə aparılan məqsədyönlü və səmərəli iş Azərbaycanın Avropa Şurasına qəbul olunması ilə nəticələndi ki, bu da müstəqilliyimiz üçün daha etibarlı və beynəlxalq hüquq qaydalarına söykənən zəmanət demək idi. Təbii ki, Heydər Əliyevin xarici siyasət kursundan bəhs edərkən bu böyük şəxsiyyətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istiqamətində atdığı addımları vurğulamamaq mümkün deyildir. Müasir müstəqillik tarixində ilk dəfə olaraq Heydər Əliyev bu məsələni konseptual formada Azərbaycanın xarici siyasət kursunun prioritet məsələləri sırasına daxil etdi. Bu, mövcud geosiyasi reallıqlar kontekstində asan məsələ deyildi. Çünki bir tərəfdən qlobal geosiyasətin özü müxtəlif problemlərlə üzləşmişdi, digər tərəfdən də, böyük dövlətlər xüsusi maraqlarını daha üstün tutaraq ədalət hissini tamamilə itirmişdilər. Təcavüzkar Ermənistanı havadarları aktiv şəkildə müdafiə edirdilər və bu, indi də davam etməkdədir. Heydər Əliyev böyük ustalıqla ermənilərin əsl niyyətlərini bütün dünyaya göstərdi. Ermənistanın Azərbaycana təcavüzünün BMT-də müzakirə edilməsi dünyaya bu münaqişənin əsl simasını anlatmağa geniş imkanlar yaratdı. Ancaq ulu öndər bununla kifayətlənmirdi. Heydər Əliyev 1994-cü və 1995-ci illərdə BMT Baş Assambleyasının yüksək tribunasından Azərbaycanda müstəqil dövlət quruculuğunun konseptual parametrlərini dəqiqliklə geniş auditoriyaya çatdırdı. Nəticədə, beynəlxalq təşkilatlar sürətlə həqiqəti öyrəndi, müxtəlif sənədlərdə Ermənistanın təcavüzkarlığı vurğulandı, regionun böyük dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bəyan etdilər, BMT erməni təcavüzünə son qoyulması ilə bağlı dörd qətnamə qəbul etdi və ATƏT münaqişəni sülh yolu ilə həll etmək üçün xüsusi qrup (ATƏT-in Minsk qrupu) yaratdı. Çoxillik gərgin fəaliyyət Ermənistanın təcavüzkarlığını bütün dünyaya nümayiş etdirməyə imkan yaratdı. Prezident İlham Əliyev sonrakı mərhələdə bu istiqamətdə bir-birinin ardınca uğurlu addımlar ataraq, Ermənistanın küncə sıxışdırılması (Dağlıq Qarabağ həqiqətləri, tarixi faktlar, erməni təcavüzü, təcavüzün ağır nəticələri) prosesini yeni səviyyəyə yüksəltdi. Artıq ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri Dağlıq Qarabağın mövcud status-kvonun dəyişməz qalmasının mümkün olmadığını bəyan edirlər. Bu o deməkdir ki, münaqişə yalnız beynəlxalq normalara əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi şərti ilə öz ədalətli həllini tapa bilər.

Ümummilli lider BMT-dəki nitqlərində Azərbaycanın xarici siyasətinin prioritetlərini ifadə etdi, müstəqil dövlətimizin strateji məqsədlərini açıqladı və bütövlükdə qlobal geosiyasəti necə təsəvvür etdiyini lakonik şəkildə bəyan etdi. Heydər Əliyev BMT-dəki çıxışlarında dünya siyasətinin trendlərini çox gözəl təhlil edərək, onlarda məzmun dəyişikliyinin aparılması zərurətini qətiyyətlə vurğulayırdı, o cümlədən böyük dövlətlərin üzərinə dünya nizamını qorumaq kimi müqəddəs bir vəzifənin düşdüyünü xüsusi vurğulayırdı. Ulu öndər İkinci Dünya müharibəsindən sonra formalaşmış beynəlxalq münasibətlər sisteminin ciddi islahatlara ehtiyacı olduğunu açıq bildirirdi. Bu bağlılıqda ümummilli lider BMT Təhlükəsizlik Şurasında köklü islahatların aparılması zərurətini vurğulayırdı. Ulu öndər dünya dövlətlərini barış, əməkdaşlıq və sülhə dəvət edir, Azərbaycanın xarici siyasətində bu məqamların əsas yer tutduğunu qeyd edirdi. Bütün bunlar aydın göstərirdi ki, Azərbaycan siyasi təfəkkürü məhdud məhəlli dairəni çoxdan tərk edib və qlobal miqyasda dünyəvi dövlətçiliyin formalaşdırılmasının başlıca prinsiplərini çox gözəl təqdim etməkdədir.

Ulu öndər Azərbaycanın xarici siyasətinin qayəsinin sülh, əməkdaşlıq və barış olduğunu yüksək tribunadan bəyan etdi. Bu, təcavüzə məruz qalmış bir dövlətin sivil, demokratik mahiyyətindən və vətəndaş cəmiyyətinin formalaşdırılmasının başlıca məqsədlərdən biri kimi tanınmasından xəbər verirdi. Dünya bunu gördü və qəbul etdi. Azərbaycan Respublikası istiqlaliyyət əldə etdikdən sonra qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır.

Müharibənin dayandırılması, daxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və regionda Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginliyin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirirdi. Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr onun Prezident fəaliyyətinin əsas istiqamətini təşkil edirdi. Azərbaycanda başlamış bu işlər əhalidə və bizi istəyən xarici aləmdə inam və sevinc yaratdığı kimi, respublikamızın inkişafını istəməyən daxili və xarici qüvvələrdə qısqanclıq oyadırdı. Azərbaycan dövlətçiliyinə qarşı olan daxili və xarici qüvvələr, müxtəlif ambisiyalı siyasi və hərbi qruplaşmalar öz mövqelərinin itirilməsi, dövlətdə və ölkədə nizam-intizam yaradılması ilə barışmaq istəmirdilər.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunandan sonra ötən bu illər ərzində bizim ali qanunvericilik orqanımız - Milli Məclis tərəfindən çoxsaylı qanunlar qəbul edilmiş, ölkənin ictimai-siyasi, iqtisadi həyatında mühüm rol oynayan sənədlərə baxılaraq qərarlar qəbul edilmişdir. Məhz Konstitusiyanın əsasında, qəbul olunmuş qanunlar Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilməsinə zəmin yaratmış, bu islahatlar bütün sahələrdə aparılmış, bu prosesi hər tərəfli inkişafı təmin etmişdir.

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəlləyir. Ölkəmizdə demokratik tərəqqi üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Respublikada müxtəlif siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, yüzlərlə mətbuat orqanlarına sərbəstlik verilməsi, özəl televiziya və radio kanallarının öz verilişlərini maneəsiz efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratiya ab-havasının hökm sürməsinin konkret əyani nəticələridir.

Biz inanırıq ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da dövlətçiliyinin, suverenliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanırıq ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi qələbəsidir. Xalqımızın yüksək mənəviyyatından irəli gələn böyük dözümü, iradəsi və müdrikliyi bütün Qafqazın sülh, əmin-amanlıq bölgəsinə çevrilməsi üçün ən etibarlı təminatdır. 1998-ci ilin prezident seçkilərində Heydər Əliyevin qələbəsi xalqın öz liderinə, müdrik, dünya şöhrətli dövlət başçısına hədsiz inam, sonsuz məhəbbətinin təcəssümü oldu.

Ulu öndər hələ Naxçıvan Ali Məclisinin sədri olarkən qəbul edilən çox mühüm qərarlardan biri də 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü kimi qeyd olunması barədə qərardır. Tale elə gətirmişdir ki, 40 milyonluq Azərbaycan xalqının az bir hissəsi öz müstəqil dövlətinə sahibdir. Soydaşlarımız müstəqil dövlətləri və tarixi vətənləri ilə yanaşı, dünyanın demək olar ki, bütün ölkələrinə səpələnmişlər. Müstəqillik uğrunda mübarizə xalqımızın milli özünüdərk prosesini daha da surətləndirdi. Tarixin obyektiv gedişatı ayrı düşmüş, birliyə can atan bütün xalqlar kimi, Azərbaycan xalqının da birliyi və həmrəyliyi yolunda qəti addımlar atılmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan etdi və bu günün bütün Azərbaycan ərazisində bayram edilməsi üçün respublika Ali Soveti qarşısında vəsatət qaldırıldı. Beləliklə, Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Ali Məclisi mərkəzi hakimiyyəti yenə də qabaqladı. Burada çox ümdə bir səbəb var. Bu, Heydər Əliyevin yalnız ona məxsus olan DÖVLƏTÇİLİK DUYUMUDUR, DÖVLƏTÇİLİK TƏFƏKKÜRÜDÜR.

Azərbaycanlıların ayrı-ayrı ölkələrə mühacirət tarixi XX əsrin əvvəllərindən başlasa da, Azərbaycan diasporunun formalaşması işi xeyli gecikmişdi. Qeyd edilməlidir ki, onun formalaşması Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsindən sonrakı illərə, daha dəqiq desək, 1993-cü ildən sonrakı dövrə təsadüf edir. Heydər Əliyevin 1991-ci il dekabrın 6-da imzaladığı tarixi qərar bu gün yenə də onun rəhbərliyi altında geniş vüsət alan diaspor hərəkatının əsasını qoydu. Naxçıvan Ali Məclisinin qərarından sonra illərdə də formal olaraq qeyd olunan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra rəsmi dövlət bayramı statusu aldı və qeyri-iş günü elan edildi.

Respublikamıza rəhbərlik etdiyi müddətdə Heydər Əliyev Azərbaycan xalqının özünüdərkinin inkişafına, müstəqillik əldə etməsində böyük zəhməti olan əvəzsiz bir liderdir. O, həyatının sonuna qədər xalqına sədaqətlə xidmət etmiş, bütün fəaliyyətini Azərbaycan Respublikasının inkişafına sərf etmişdir. Ulu öndərin respublikaya başçılıq etdiyi dövrlərdə Azərbaycan dünyada surətlə inkişaf edən dövlətlər sırasına qoşulmuşdur. Beləliklə, Heydər Əliyevin Azərbaycana, regiona və dünyaya ciddi töhfələr verdiyi hamılıqla tanınan faktdır. Ümumiyyətlə, ulu öndərin əvəzsiz xidmətlərindən biri də Azərbaycan xalqının gələcək tərəqqisini təmin edən İlham Əliyev kimi böyük siyasət xadimini yetişdirməsi oldu. Bu, əslində, Heydər Əliyevin Vətən sevgisindən, siyasi peşəkarlığından, milli dəyərlərə ciddi bağlılığından qaynaqlanır. Onun dövlət quruculuğu kursunu Prezident İlham Əliyev böyük uğurla inkişaf etdirir. Dövlət başçısının uzaqgörən, məntiqli, elmi əsaslara söykənən fəaliyyətinin siyasi-praqmatik müstəvidən real müstəviyə keçməsi bir daha təsdiq edir ki, dövlətimizin başçısının bitkin, siyasi, iqtisadi və sosial cəhətdən yüksək peşəkarlıqla əsaslandırılmış strateji fəaliyyət proqramları vardır. Siyasi və hüquqi liberallaşdırmaya, vətəndaş cəmiyyətinin inkişafına xidmət edən islahatların sürətləndirilməsi millətin intellektual potensialının reallaşdırılmasına, ölkənin tərəqqisinə və innovasiyalı modernləşdirməyə istiqamətlənmişdir. Bu gün biz azad, demokratik bir cəmiyyətdə yaşayır, müqəddəs torpağımızın keşiyini çəkir, sülh və dincliyə can atırıq. Dünyada heç bir çətinlik əbədi deyil. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır. Elə buna görə də Azərbaycan qarşıda duran ümummilli məqsədlərin reallaşdırılması istiqamətində ardıcıl və sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yüksəliş fenomeninə çevrilməkdədir. Yəni ulu öndər müstəqil Azərbaycan naminə yalnız yaşadığı dövrü deyil, gələcəyi də düşünüb! Hazırda dünya şöhrətli siyasətçi, xalqın dahi oğlu Heydər Əliyevin siyasi kursu onun ən layiqli davamçısı dövlət başçısı İlham Əliyev tərəfindən çox böyük bacarıq və müdrikcəsinə həyata keçirilir. Buna görə də ulu öndər ümummilli lider kimi həmişəyaşardır xalqın qəlbində, onun ideyaları dövlətin bütün istiqamətlər üzrə aparılan uğurlu siyasətinin ruhundadır. Onun müəllifi olduğu XX əsrin "Əsrin müqaviləsi" nəticəsində reallaşan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərləri ilə dünya bazarlarına çıxan karbohidrogen ehtiyatlarının realizəsi sayəsində gələn gəlirlərin qeyri-neft sektorunuun inkişafına yönəldilməsi hazırda ölkəni regionun ən islahatçı, dinamik inkişaf edən dövlətinə çevirib. Real sektorun prioritet elan edilməsi nəticəsində bu sahədə inkişaf tempi çox yüksəkdir. Bu gün Çini Avropa ilə birləşdirən ən təhlükəsiz və qısa "Şərq-Qərb" nəqliyyat dəhlizi, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu istifadədədir. "Şimal-Cənub" nəqliyyat dəhlizinin də istismara verilməsinə az qalır. Beləliklə, Azərbaycan çox mühüm beynəlxalq nəqliyyat qovşağına çevrilir. Bundan başqa, bu infrastruktur - iqtisadiyyatın qan damarları onlarla ölkəni bir-birinə bağlayan əməkdaşlıq dəhlizləridir, müxtəlif təsərrüfat sahələrinin kooperativ birliyinə təkan da verə bilər. Regionların inkişafı üçün yeni infrastruktur layihələrinin həyata keçirilməsi fəal şəkildə davam etdirilir. Ölkəmiz dinamik inkişaf sayəsində kosmik dövlətə çevrilib, hazırda telekommunikasiya və müşahidə peyklərimiz orbitdədir, növbətinin də kosmik fəzaya çıxarılması yaxın vaxtlarda baş tutacaqdır. Regionun lider dövləti mövqeyini əldə etmək, Cənubi Qafqazda mühüm iqtisadi, siyasi və multikultural mərkəzə çevrilmək müstəsna fəaliyyət deməkdir. Əldə edilən bu nailiyyətlər ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun bəhrəsidir. Azərbaycan öz Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderin siyasi xəttinə sadiqliyi sayəsində hər il inkişafın yeni, daha yüksək mərhələsinə qədəm qoyur. İqtisadiyyatın şaxələndirilməsi, ərzaq, enerji və təhlükəsizliyinin möhkəmləndirilməsi, özünütəminat səviyyəsinin yüksəldilməsi, məşğulluğun təmin olunması, qeyri-neft məhsullarının ixracının artırılması, idxaldan asılılığın azaldılması və digər strateji vəzifələrin həlli davamlıdır. Bu gün qarşıda duran ümdə vəzifələrdən biri iqtisadiyyatın inkişafına güclü stimul verən ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Dövlət başçısı düşünülmüş siyasətlə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun davamlı inkişafı nəticəsində ixrac dövriyyəsinin davamlı surətdə artması barədə deyib: "Bizim xarici ticarət dövriyyəmiz 31 faiz artmışdır. Bu da çox gözəl göstəricidir. İxrac isə 37 faiz artmışdır, daha doğrusu, qeyri-neft ixracı. Ümumi ixrac 24 faiz, qeyri-neft ixracı 37 faiz artmışdır. Bu da bizim siyasətimizin bariz nümunəsidir. Çünki ixracın şaxələndirilməsi iqtisadi sahədə əsas prioritet məsələdir ki, biz daha çox qeyri-neft sektorundan valyuta əldə edək və beləliklə, yerli istehsal güclənsin, yeni iş yerləri yaradılsın və ölkəmiz daha da sürətlə inkişaf etsin". Beləliklə, biz əminik ki, ulu öndərin strategiyasının dövlət başçısı İlham Əliyev tərəfindən əzm, qətiyyət və inamla həyata keçirildiyi ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, inkişaf, tərəqqi, vətəndaş həmrəyliyi, günü-gündən daha da möhkəmlənəcək, müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, çoxşaxəli iqtisadiyyatın dinamizmi başqa dövlətlər üçün də nümunə olacaqdır. ■

# İnsan hüquqlarının böyük hamisi

## *Ulu öndərin əsasını qoyduğu məhkəmə-hüquq islahatları keyfiyyətcə yeni mərhələdə davam etdirilir*

**Tarixi təcrübə göstərir ki, yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlətçilik modeli tarixin sərt sınaqları qarşısında duruş gətirərək milli inkişafın əsasına çevrilir. Hər bir müstəqil dövlətin yaranmasına, möhkəmləndirilməsinə və qorunub saxlanılmasına doğru uzanan mürəkkəb ictimai-siyasi proseslərin episentrində isə məhz lider və şəxsiyyət amili dayanır. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi təməlini fundamental elmi prinsiplərlə müəyyənləşdirmişdir.**



Anadan olmasının 95-ci ildönümünü böyük təntənə ilə qeyd etdiyimiz ulu öndər Heydər Əliyev dərin zəkası, lider xarizması, milli ideallara, adət-ənənələrə sıx bağlılığı, zəngin idarəçilik keyfiyyətləri ilə hələ imperiyanın ideoloji repressiya maşınının sərtliklə işə düşdüyü bir dövrdə - 70-80-cı illərində "Qoy ədalət zəfər çalsın!" şüarını dövrünün ictimai çağırışına çevirməyi bacarmışdır. Böyük strateq qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində prinsipial addımlar atmış, xalqın bəşəri hüquqlarının əzmkar və cəfakeş müdafiəçisinə çevrilməklə, milli ruh, iradə və özünüdərk meyillərinin ictimai şüurda möhkəmlənməsinə nail olmuşdur. Bu günün zirvəsindən baxdıqda, sovet rejiminin ideoloji qəliblərinin hökm sürdüyü həmin illərdə ulu öndər Heydər Əliyevin xalqının hüquqlarını qoruyan, haqqı-nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri qabarıq sezilir.

Böyük şəxsiyyət bütün maneələri adlayaraq Azərbaycanın milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Bir sıra müttəfiq respublikalardan fərqli olaraq, o illərdə Azərbaycanda nəinki dissident yazarlar olmamış, əksinə, tanınmış ziyalı və şairlər xalqda özünüdərk hissinə ciddi impulslar verən əsərlər yazmış, ulu öndərin milliliyi, xalqına bağlılığı onları həbs olunmaq təhlükəsindən hifz etmişdir.

Ulu öndər Azərbaycanda dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində qanunla tənzimləndiyi, insani dəyər və azadlıqların maksimum dərəcədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin yaradılması, demokratik ənənələrin ictimai şüuarda möhkəmlənməsi uğrunda misilsiz xidmətlər göstərmişdir. Bütöv, kamil şəxsiyyət kimi Heydər Əliyevin ən nəcib mənəvi keyfiyyətlərindən biri də məhz onun siyasi fəaliyyətinin bütün mərhələlərində sosial ədalət, düzgünlük və humanizm prinsiplərinə tapınması, bu mənəvi-əxlaqi meyarların ictimai şüurda möhkəmlənməsinə çalışması olmuşdur.

Ulu öndər Heydər Əliyevin insan hüquqları sahəsindəki fəaliyyəti təkcə ayrı-ayrı fərdlərin, kütlələrin deyil, bütöv bir xalqın hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir. Məhz bu zəngin mənəvi keyfiyyətləri sayəsində ulu öndər həm də ictimai fikirdə xilaskarlıq mücəssəməsinə çevrilmişdir. 1993-cü ilin iyununda canı, qanı bahasına əldə etdiyi müstəqilliyinin itirilməsi, vətəndaş qarşıdurması, xoas və anarxiya burulğanına sürüklənən müdrik xalqımız çıxış yolunu məhz Heydər Əliyevin Azərbaycanda rəhbərliyə qayıtmasında görmüşdür.

Böyük öndər ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını qeyri-mümkün hesab etmiş, bunun üçün ilk növbədə, məhkəmə-hüquq sistemində dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasına nail oldu. Ulu öndər respublika rəhbərliyinə qayıtdığından çox az sonra əfvetmə institutunu bərpa etməklə, vətəndaşların dövlətə, onun rəhbərinə güvəncini, ümid və etimadını artırmışdır. 1993-2003-cü illərdə 32 əfv, 8 amnistiya aktı imzalamaqla cəzanın adekvatlığı və humanistliyi məsələlərinə xüsusi diqqətlə yanaşdığını sübuta yetirmişdir. Bu məqsədlə, eyni zamanda, məhkəmə-hüquq sistemində işlək və çevik mexanizmlərin tətbiqinə, habelə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına çalışmışdır.

1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk milli Konstitusiya demokratik dövlət quruculuğu prosesinin başlıca prinsiplərini, vətəndaşların fundamental hüquq və vəzifələrini müəyyən etmişdir. Faktiki olaraq yeni Konstitusiyanın qəbulu ilə Azərbaycanda siyasi sistemin formalaşmasına başlanılmış, hüquqi-siyasi islahatların aparılmasına fundamental baza yaradılmış, hakimiyyət bölgüsü prinsipləri təsbit edilmişdir. Əsas Qanunda əksini tapmış müddəaların üçdə birinin sırf insan hüquqlarının etibarlı təminatı ilə bağlı olması da kifayət qədər diqqətçəkici məqamdır.

Ümummilli liderin 1998-ci il dekabrın 1-də imzaladığı fərmanla qüvvəyə minmiş "Məhkəmələr və hakimlər haqqında" qanun bu sahədə qanunvericiliyin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından mühüm addım olmuşdur. Ümumiyyətlə, sözügedən qanun əsasında həyata keçirilən islahatlar nəticəsində yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən və insan hüquqlarının müdafiəsinə daha etibarlı təminat yaradan üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır. Həmçinin, həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin görülməsi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilmiş, məhkəmələr üzərində prokuror nəzarəti ləğv edilmiş, istintaqa məhkəmə nəzarəti, habelə təhqiqat, istintaq və prokurorluq orqanlarının qanunsuz hərəkətlərindən məhkəməyə şikayət hüququ müəyyən olunmuşdur.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında - test üsulu ilə seçilmiş, nəticədə hakim korpusu təzələnmişdir. 2002-ci ilin 24 avqustunda Konstitusiyaya ümumxalq referendumu ilə edilmiş əlavə və dəyişikliklərin bir qismi də məhz məhkəmə hakimiyyətinin fəaliyyətinin təkmilləşdirilməsinə xidmət etmişdir. Konstitusiyada ilk dəfə olaraq hər kəsin onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının, bələdiyyələrin normativ aktlarından, məhkəmə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermək hüququ təsbit olunmuşdur.

Siyasi liderin idarəçilik məharəti ictimai inkişafın mövcud mərhələlərinə uyğun olaraq insanların idarəçilikdə iştirakı formalarını müəyyənləşdirmək bacarığında müəyyən olunur. Ulu öndər Heydər Əliyevin layiqli siyasi varis kimi 2003-cü ildə cəmiyyətə təqdim etdiyi cənab İlham Əliyev dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən ulu öndərin iqtisadi, siyasi və hüquqi islahatlar kursunu inamla davam etdirmişdir. Xüsusi vurğulamaq istərdik ki, dövlətimizin başçısı cənab İlham Əliyevin 2018-ci ilin 11 aprel seçkilərində inamlı qələbə qazanması, ümumən cəmiyyətin mütləq çoxluğun alterantivsiz seçimi kimi diqqət çəkmişdir. Bu müdrik seçim nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən Heydər Əliyev siyasi kursunun davamlılığını və alternativsizliyini şərtləndirən amillərin sosial sifariş amilinə əsaslandığını bir daha sübuta yetirmişdir.

Hər bir vətəndaşın mənafeyinə xidmət edən mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ilin oktyabrından xüsusi diqqət mərkəzində saxlayan möhtərəm Prezidentimiz İlham Əliyev, ilk növbədə, qanunvericiliyin daha da müasirləşdirilməsi və yeni dövrün tələblərinə uyğunlaşdırılması məsələlərini diqqətdə saxlamışdır. Bu məqsədlə Azərbaycan-Avropa Şurası birgə işçi qrupları yaradılaraq onun tərkibinə nüfuzlu beynəlxalq ekspertlər daxil edilmiş, çoxşaxəli fəaliyyət planı hazırlanaraq həyata keçirilmişdir. Görülmüş tədbirlər nəticəsində "Məhkəmələr və hakimlər haqqında" qanun əsaslı şəkildə yenilənmiş, "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanun, "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə", "Hakim vəzifələrinə namizədlərin seçimi Qaydaları", "Hakimlərin Etik Davranış Kodeksi", "Məhkəmələrdə işin şəffaf təşkili" ilə bağlı digər mühüm sənədlər qəbul edilmişdir.

19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərman respublikanın məhkəmə sistemində fundamental yeniliklər üçün baza rolunu oynamışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya və iqtisad məhkəmələri yaradılmışdır. Fərman əsasında, həmçinin Ədliyyə Akademiyası yaradılmış, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmiş, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuşdur.

Məhkəmələrin iş yükünün azaldılması, işlərə vaxtında nəzərdə tutulmuş qaydada və vaxtda baxılması məqsədilə məhkəmələrdə hakimlərin sayının artırılması da xüsusi diqqət mərkəzində olmuşdur. Dövlət başçısı İlham Əliyevin 17 avqust 2006-cı il tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı ilə respublika məhkəmələri hakimlərinin sayı 153 ştat, ümumilikdə son illərdə hakimlərin sayı 2 dəfə, məhkəmə işçilərinin sayı 75 faiz artırılmış, hər bir hakimə köməkçi ayrılmışdır. Respublika üzrə hakimlərin sayının 600 nəfər müəyyən olunması da ədalət mühakiməsinin keyfiyyətini daha da yüksəltmişdir. Bundan başqa, son illər hakimlərin müddətsiz - son yaş həddinədək təyinatı, fəaliyyətinin qiymətləndirilməsi və intizam məsuliyyətinə cəlb edilməsinin şəffaf və demokratik əsasları təsbit olunmuşdur.

Məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyə 22 iyun 2010-cu il tarixdə edilmiş dəyişikliklər, habelə məhkəmə sisteminin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixdə imzaladığı fərmanların ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rolu olmuşdur. Bu tədbirlər nəticəsində əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ölkənin əlavə dörd bölgəsində regional ağır cinayətlər məhkəmələrinin təsis edilməsi, dövlət orqanları tərəfindən insan hüquqlarına ciddi əməl olunmasının təmini məqsədilə ölkə tarixində ilk dəfə olaraq yeddi bölgədə inzibati-iqtisadi məhkəmələrin yaradılması, hərbi məhkəmə sisteminin təkmilləşdirilməsi, habelə hakim ştatlarının sayının 25 faiz artırılması xüsusi əhəmiyyət kəsb etmişdir. Regional ağır cinayət, inzibati-iqtisadi və hərbi məhkəmələrin tezliklə fəaliyyətə başlaması üçün qısa müddət ərzində mühüm təşkilati tədbirlər həyata keçirilmiş, 2011-ci ilin yanvar ayından 12 yeni regional məhkəmə fəaliyyətə başlamışdır.

Məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, hakimlərin müasir informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən istifadə imkanlarının yaradılması, ümumən ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə, korrupsiyaya qarşı mübarizəyə xidmət etmişdir. Son illərdə Bakının Yasamal, Sabunçu, Nərimanov, rayonlarında, habelə Gəncə, Oğuz, Gədəbəy, Şəki və İmişli rayonlarında müasir məhkəmə kompleksləri inşa edilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" Sərəncamından irəli gələn vəzifələr də hazırda uğurla icra edilir. Xatırladaq ki, "Elektron məhkəmə" informasiya sistemi məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəddir. Məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmini, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi olmuşdur.

İnsana xas ən ali duyğulardan olan humanizm hissinin cəza siyasətində öz əksini tapması vacib məsələlərdəndir. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı bu baxımdan böyük tarixi-mənəvi dəyəri olan bir sənəddir. Bu sahədə fəaliyyət göstərən dövlət orqanları üçün bir növ "strateji yol xəritəsi" rolunu oynayan sərəncam penitensiar sahənin inkişafı və cəza siyasətinin humanistləşdirilməsi baxımından bir sıra vəzifələri önə çəkir. Sərəncamla penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin təmin olunması, müasir texnoloji vasitələrin tətbiqi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmışdır. Yeni xidmətin yaradılmasında məqsəd cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına səmərəli nəzarətin təşkili və bu sahədə idarəetmənin təkmilləşdirilməsidir.

Sərəncam əsasında Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluq tərəfindən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı qanunvericilik və məhkəmə-istintaq təcrübəsinin əhatəli təhlil olunması və irəli sürülmüş təkliflər əsasında may ayında Cinayət və Cinayət-Prosessual məcəllələrinə 300-ə yaxın dəyişikliklərin edilməsi də xüsusi vurğulanmalıdır. Həmin dəyişikliklərə əsasən, 15-dən çox cinayət tərkibi dekriminallaşdırılaraq cinayət kateqoriyasından inzibati xəta kateqoriyasına keçirilmişdir. Dekriminallaşma yalnız maddələrin ləğv edilməsi ilə deyil, həmçinin cinayət tərkibinin yaranması üçün vurulan ziyanın məbləğinin artırılması ilə həyata keçirilmişdir.

Bir sıra mühüm dəyişikliklərlə zərərçəkmiş şəxslə barışmaqla cinayət məsuliyyətindən azadetmə institutu təkmilləşdirilmiş, habelə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azadetməni nəzərdə tutan yeni normalar müəyyən edilmişdir. Bundan əlavə, azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması məqsədilə cəmiyyətdən təcridetmə ilə bağlı olmayan yeni cəza növü müəyyən edilmiş və 158 maddənin sanksiyasına alternativ cəzalar, o cümlədən yeni cəza növü olan azadlığın məhdudlaşdırılması əlavə olunmuş, 36 cinayətə görə isə azadlıqdan məhrumetmə cəzası yüngülləşdirilmişdir.

Azərbaycanda cəzaların icrası siyasətinin təkmilləşdirilməsində, humanizm prinsiplərinin bərqərar olmasında, insan hüquqlarının dövlət qurumları ilə yanaşı, eyni zamanda, vətəndaş cəmiyyəti institutları tərəfindən də qorunmasında, bu sahədə faydalı ictimai təşəbbüslərin irəli sürülməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır. İndiyə qədər Mehriban xanım Əliyevanın irəli sürdüyü 4 amnistiya aktı layihəsi əsasında minlərlə məhbus həyatın ən böyük nemətlərindən olan azadlığa qovuşmuşdur.

Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərliyi ilə son illər gerçəkləşdirilən uğurlu islahatlar beynəlxalq miqyasda da yüksək qiymət alır. Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyası (CEPEJ) öz hesabatlarında Azərbaycanda hakimlərin seçki və təyinatı sahəsində ölkəmizi bir çox Avropa dövlətləri üçün nümunə göstərmişdir. Ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin də mükafatçısı olmuşdur.

*Bütün bunlar bir daha təsdiqləyir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən məhkəmə-hüquq islahatlarının yeni mərhələsi ədalət mühakiməsinin səmərəli təşkilinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına yönəlmişdir. Həyata keçirilən bu islahatlar respublikamızda qanunçuluğun və hüquq qaydalarının daha da möhkəmlənməsinə, habelə Azərbaycanın beynəlxalq arenadakı demokratik imicinin yüksəlməsinə xidmət edir.*

2018-ci il 11 aprel seçkilərinin nəticələri əminliklə deməyə əsas verir ki, xalqın böyük dəstəyini qazanmış cənab İlham Əliyev respublikamızı hərtərəfli inkişaf və tərəqqiyə aparan, eləcə də məhkəmə-hüquq sistemində müasirləşməyə, ədalət mühakiməsinin keyfiyyətinin davamlı şəkildə yüksəlməsinə xidmət edən islahatları bundan sonra da inamla davam etdirəcək, Azərbaycan qısa zamanda inkişaf etmiş dövlətlərdən birinə çevriləcəkdir.

**Zamin İBRAHİMOV,**
**Astara Rayon Məhkəməsinin sədri.**

# Müstəqilliyimizin memarı

**Ulu öndər Heydər Əliyevin ölkə taleyinin həlledici bir məqamında hakimiyyətə gəlişi Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və müstəqilliyimizin əbədiliyinə hərtərəfli zəmin yaratdı.**

... 1969-cu il iyulun 14-də Azərbaycanın siyasi səhnəsində, sözün böyük mənasında, günəş doğdu. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi seçildi, ilk dəfə ölkəmizdə hakimiyyət sükanına xalqının taleyinə tam sahib durmaq iqtidarına yetişən xalqın böyük oğlu oldu... 1969-cu ildə keçirilən məşhur avqust plenumu isə Azərbaycanın həyatında mühüm və şərəfli bir mərhələnin başlanğıcını qoydu və 1969-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Ümummilli lider hələ Sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdı.

Bu danılmaz məntiqin mahiyyətinə qədərincə varmaq üçün insanda yalnız və yalnız heyrət doğuran faktların təkcə bir qisminə diqqət kəsilmək kifayətdir... Heydər Əliyev hakimiyyətə gələnə qədər ən geridə qalan respublikalardan biri sayılan Azərbaycan qısa müddətdə iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini ötdü. 1969-1982-ci illərdə milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı və ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini 2 dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, xalqımızın güzəranı qat-qat yüksəldi. Respublikamızın elmi-texniki potensialı dəfələrlə artırılaraq 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Artıq ötən əsrin 80-ci illərinin əvvəllərində ən nüfuzlu ali məktəblərə respublikamızdan təhsil almağa göndərilənlərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Hər il 800-1000 azərbaycanlı gənc isə ittifaqın sayılıb-seçilən hərbi məktəblərində ordu quruculuğunun sirlərinə yiyələnirdi. Heydər Əliyevin həyata keçirdiyi titanik və kompleks fəaliyyət nəticəsində Azərbaycan keçmiş ittifaqda daxili imkanlarına və intellektual potensialına arxalanaraq özünü idarə etmək iqtidarında olan 2 respublikadan birinə çevrildi.

1993-2003-cü illər də ulu öndərin planetin nadir şəxsiyyətlərindən, dövlət və ictimai xadimlərindən biri olduğunu növbəti dəfə sübuta yetirdi. Ümummilli liderin mükəmməl idarəçilik məharəti sayəsində Azərbaycan keçid dövrünün mürəkkəb labirintlərindən uğurla çıxdı. 1996-cı ildən respublikamız yenidən dirçəliş mərhələsinə qədəm qoydu. 1996-2003-cü illərdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı və onların sayı 5202-yə çatdırıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin müddətdə Ümumi Daxili Məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar vüsət götürdü. Respublikamızın beynəlxalq nüfuzu durmadan yüksəldi. Ümummilli liderin müdrik siyasəti hesabına düşmənlərin ara verməyən məkrinə, min bir hiyləsinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, respublikamızda anlaşma hökm sürdü, tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu öndər strateji hədəfləri zərgər dəqiqliyi ilə müəyyənləşdirmək və onları kompleks şəkildə həyata keçirmək bacarığı ilə xüsusilə fərqlənirdi. Balanslaşdırılmış və milli mənafeyə əsaslanan dövlət siyasət, ictimai-siyasi sabitliyin dayanıqlılığına nail olma məharəti, iqtisadi qüdrət, güclü sənaye potensialı, elmi-texniki tərəqqi, təhsil, müasir ordu quruculuğu, kadr hazırlığı, xalqın güzəranının və həyat tərzinin durmadan yaxşılaşdırılması, milli irsin qorunması, mənəvi dəyərlərin möhkəmləndirilməsi və layiqincə təbliği və sair ümummilli liderin başlıca strateji hədəfləri idi. Bir sözlə, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin tarixinin ən intensiv inkişaf mərhələsinə təkan verdi.

2003-cü ildən bəri ötən zaman kəsiyi də ümummilli liderin ideya və idarəçilik məktəbinin əbədiyaşarlığının növbəti sübutu oldu. Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev istər mahir siyasətçi, istərsə də bir millətin təmsilçisi, sərkərdəsi kimi Heydər Əliyev ucalığının təcəssümüdür. O da ən ümdə xəyalları gerçəkliyə çevirən dövlət başçısı, millətinin həqiqi lideridir. Hazırda, sözün böyük mənasında, doğma Azərbaycanımız 21-ci əsrin bir çox məsələlərdə nümunəvi dövlətidir. Ölkəmiz iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Artıq Azərbaycanın mükəmməlliyi ilə fərqlənən, peşəkarcasına balanslaşdırılan dövlət siyasəti, o cümlədən xoşməramlı energetika siyasəti bariz nümunə rolunu oynayır.

Heydər Əliyev dünya siyasətinə təsir etməyə qadir və ən aktual çağırışlara cavab verən, tarixi perspektivləri qabaqcadan görən ən mürəkkəb situasiyalarda yeganə düzgün qərarlar qəbul etməyi bacaran çox nadir şəxsiyyət olub. Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə desək, "Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".

Məhz bu uca zirvədən ulu öndər Heydər Əliyev epoxasına nəzər salarkən onun ayrı-ayrı mərhələlərini və idarəçiliyinin nəticələrini araşdırarkən, müasir tariximiz bu müdrik şəxsiyyətin Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında oynadığı mühüm rolu, ölkəmizin milli mənafeləri baxımından bənzərsiz fəaliyyətini təhlil edərkən gəldiyimiz qənaət budur ki, xalqımızın bu şanlı müasir tarixini məhz Heydər Əliyev bütün çətinliklərə sinə gərərək yaradıb. Bu il anadan olmasının 95 illiyini qeyd etdiyimiz ulu öndərimiz haqqında fəxrlə deyə bilərik: Tarixi yaradan şəxsiyyətlər dünyada əbədi, bəşər sivilizasiyası durduqca yaşayırlar.

Azərbaycanın çağdaş dövrünün yeni intibah mərhələsinin banisi sayılan Heydər Əliyev şəxsiyyəti tükənməz və öyrənildikcə öyrəniləsi bir xəzinədir, Heydər Əliyev irsi Azərbaycanın söykəndiyi dağdır... O dağınsa zirvəsi çox ucadır, ucadan da uca... Bu da danılmaz həqiqətdir ki, həmin uca zirvədən boylanan Günəşin - Heydər Əliyev dühasının tükənməz nuru Azərbaycanın müstəqilliyinin əbədiliyinə, millətimizin işıqlı sabahlarına daim işıq saçacaq...

**Rövşən FƏRHADOV,**
**"Az-Qranata" MMC-nin icraçı direktoru.**

# Əbədiyaşar lider

**Böyük şəxsiyyətləri tarix, zaman özü yetişdirir və onlar öz əməlləri ilə tarixi yaradır, zənginləşdirir və dəyişdirirlər. Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. Bu tarixi şəxsiyyətin fəaliyyətinin hər səhifəsi, hər mərhələsi Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür. Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsi böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğunda Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur.**

Ümummilli liderimiz Heydər Əliyev öz ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan nəhəng şəxsiyyət idi. O, təkcə öz ömrünün liderlik zirvəsində deyil, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. Bu zirvədə xalqın dünəni, bu günü və sabahı görünür. Ümummilli lider qarşıya çıxan bütün sədləri yararaq Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarır, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayanan Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyi və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə zəmanəmizin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Dahi rəhbərin ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıq göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi, monolit qüvvəyə çevrilmələri üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bügünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Azərbaycan müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada azərbaycançılığımızın ən parlaq səhifələri də elə həmin illərdən yazılmışdır.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafeyini qorumağa qadir silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

Bu gün ulu öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursunu uğurla reallaşdıran Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin leytmotivini sistemlilik, iqtisadi inkişafda dinamizm, beynəlxalq əməkdaşlıqda qarşılıqlı maraqlara əsaslanmaq, milli mənafelərin qorunması, xalqın rifahını yüksəltmək kimi mühüm vəzifələr təşkil edir.

**Etibar ABDULLAYEV,**
**19 saylı Nərimanov birinci dairə seçki komissiyasının sədri.**

# Heydər Əliyev müstəqilliyimizin banisi və Azərbaycan xalqının əbədiyaşar lideridir

*(əvvəli 3 may tarixli sayımızda)*

Heydər Əliyev SSRİ-nin ali hərbi məktəblərinə oxumağa gedənlərin tərkibində azərbaycanlıların xüsusi çəkisinin yüksək olmasının təmin edilməsi məsələsinə xüsusi önəm verirdi. Bunun nəticəsidir ki, Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələr arasında azərbaycanlıların xüsusi çəkisi 2,4 dəfədən çox artaraq 1969-cu ildəki 40,0 faizdən 1980-ci ildə 97,6 faizə qalxmışdı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçmiş SSRİ vaxtı həlli mümkün olmayan bir məsələnin həllinə — Bakıda milli hərbi kadrlar hazırlayan C.Naxçıvanski adına məktəbin yaradılmasına nail olunmuşdu. Bu, əsl fədakarlıq və milli qürur hissi doğuran dövlət əhəmiyyətli bir məsələ idi.

Ulu öndərimizi dünyanın bütün ölkələrinin rəhbərlərindən fərqləndirən ən müsbət keyfiyyətlərindən biri də onun elmə, elm adamlarına olan xüsusi münasibəti, sıx bağlı olması, onlara qayğı ilə yanaşması və bütün məsələlərin həllinə istər xarici, istərsə də daxili siyasət sahəsində — həmişə elmi cəhətdən əsaslandırılmaqla yanaşmağa üstünlük verməsi idi. O deyirdi: **“Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam... Ona görə ki, elm adamları müstəsna adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdır... Bu insanlar ən yüksək hörmətə layiqdirlər”.**

Elmə və elm adamlarına belə yüksək qiymət vermək isə ancaq böyük ziyalı və elmli adamlara məxsus olan keyfiyyətdir. Təsadüfi deyildir ki, Heydər Əliyev hələ 1969-cu ildə Azərbaycan KP MK-nın məşhur avqust (1969-cu il) plenumunda respublika elminin inkişafında yaranmış ağır vəziyyətdən narahat olaraq demişdir: “Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər... Dissertasiyaların heç də hamısı lazımi səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir. Aspirantların xeyli hissəsi namizədlik dissertasiyalarını vaxtında hazırlaya bilmir. Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Onlar özlərinə tapşırılmış işin zərərinə olaraq dissertasiya yazır, bəzən bunun üçün hətta öz vəzifələrinin imkanlarından istifadə edirlər... Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirənlər gəlsinlər”. Heydər Əliyevin rəhbərliyi və qayğısı nəticəsində Azərbaycan elmi keçən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində öz qızıl dövrünü yaşamışdır. 1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6 faiz artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər namizədlərinin sayı 1,6 dəfə artaraq 1275 nəfərdən 2068 nəfərə, elmlər doktorlarının sayı isə 1,5 dəfədən çox artaraq 188 nəfərdən 285 nəfərə çatmışdı. Bütövlükdə götürdükdə, əgər 1945-1970-ci illəri əhatə edən 25 il ərzində Azərbaycan Elmlər Akademiyası alimlərinin cəmi 170 əsəri sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdisə, 1971-1980-ci illəri əhatə edən 10 il ərzində onların sayı 486-ya çatmış və ya 2,8 dəfə artmışdı.

Bu deyilənlərin nəticəsi idi ki, SSRİ-nin dağılması ərəfəsində keçmiş İttifaqın tərkibindəki respublikaların yalnız ikisi tam müstəqil olaraq öz iqtisadiyyatını idarə etmək imkanına malik idi: Rusiya və Azərbaycan! Bunun əsas səbəbi isə 70-80-ci illərdə Azərbaycana məhz Ulu öndər Heydər Əliyevin rəhbərlik etməsi, onun elmi həqiqətlərə əsaslanan iqtisadi inkişaf strategiyasının nə qədər doğru və düzgün seçilməsi ilə izah edilir. Bu, sözün əsl mənasında, onun öz xalqının əvəzsiz lideri olmasını sübut edən xarakterik xüsusiyyətlərindən biridir.

Heydər Əliyevin 1982-ci ilin axırlarında SSRİ rəhbərliyinə irəli çəkilməsindən sonra, ələlxüsus da 1988-1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş səriştəsiz adamların fəaliyyətsizliyi üzündən 70-80-ci illərdə burada yaradılmış böyük iqtisadi potensial ilbəil dağıdılıb talan edilməyə başlanmış və 1991-1993-cü illərdə özünün kulminasiya mərhələsinə qədəm qoymuş və Azərbaycan “olum, ya ölüm” dilemması qarşısında qalmışdı. Belə ağır bir vaxtda 1993-cü ilin 15 iyununda xalqımızın təkidli tələbi ilə Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı Azərbaycanı və bütünlükdə xalqımızı fəlakətdən xilas etdi və onun qurtuluşu başlandı. Öz xalqından heç bir təmənnası olmayan bu böyük şəxsiyyət ikinci dəfə hakimiyyətə qayıdarkən “Mənim həyatım xalqa məxsusdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir” — deyən bu dahi şəxsiyyət ilk gündən Azərbaycanda həyata keçirilən bütün iqtisadi islahatların və köklü dəyişikliklərin təşkilatçısı və ilhamvericisi olmuşdur. Onun gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik təmin edilmiş, ölkəmiz Avropa Şurasının tam üzvlüyünə qəbul edilmiş, XX əsrin neft sazişi “Əsrin müqaviləsi” imzalanmış və neft strategiyası işlənib hazırlanmış, dünyanın bir çox super dövlətləri ilə kontraktlar bağlanmışdır.

Neft strategiyasının uğurla həyata keçirilməsinin nəticəsi idi ki, həmin müqavilə imzalandıqdan cəmi bir neçə il ərzində ölkəmizə 10 milyard dollardan çox vəsait cəlb edilmişdir. Müdrik rəhbərin apardığı məqsədyönlü iqtisadi siyasət və həyata keçirilən kompleks tədbirlər nəticəsində 1989-cu ildən ötən dövr ərzində ilk dəfə olaraq Azərbaycanda 1996-cı ildə iqtisadiyyatda dirçəliş baş verdi və əhalinin pul gəlirlərinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələdi. **1991-1995-ci illərdə iqtisadi inkişafın əsas makroiqtisadi göstəricisi sayılan ümumi daxili məhsulun (ÜDM) real həcmi ildə 20-25 faiz, sənaye məhsulu istehsalı isə 15-20 faiz azaldığı halda, 1993-2003-cü illərdə ÜDM istehsalı 22,3 dəfə artaraq 157,1 milyard manatdan 35,1 trilyon manata, adambaşına düşən ÜDM-un həcmi isə 20,3 dəfə artaraq 21,3 min manatdan 43,2 min manata, əhalinin pul gəlirlərinin məbləği 17,9 dəfə artaraq 135,5 milyard manatdan 24,2 trilyon manata, adambaşına düşən pul gəlirlərinin məbləği 16,2 dəfə artaraq 18,4 min manatdan 2983,4 min manata, iqtisadiyyatda məşğul olan işçilərin orta aylıq əmək haqlarının məbləği isə 174,1 dəfə artaraq 2,2 min manatdan 383,1 min manata gəlib çatmışdır.**

Heydər Əliyevin xalq və dövlət qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan elminə və Elmlər Akademiyasına daim hamilik etməsi, 70-ci illərdə Elmlər Akademiyasına dünya şöhrəti qazandırması, 90-cı illərin əvvəllərində onu bağlanmasının qarşısını alıb yenidən dirçəldilməsinə nail olmasıdır. O, çox gözəl bilirdi ki, elmi inkişaf etdirmədən ölkə iqtisadiyyatında hər hansı nailiyyət əldə etmək, onun dinamik və səmərəli inkişafına nail olmaq qeyri-mümkündür. Ancaq çox təəssüflər olsun ki, 1992-1993-cü illərdə elə vəziyyət yaranmışdı ki, Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üzləşmişdi. Elə bu səbəbdən də həmin illərdə və ondan sonrakı ilk dövrlərdə elmi işçilərin bir çoxu elmdən uzaqlaşaraq ticarət sahəsinə, kommersiya strukturlarına, özəl qurumlara və xarici ölkələrdə işləməyə üz tutmuşlar. 1997-ci ilin 31 yanvarında Heydər Əliyevin Elmlər Akademiyasının üzvləri ilə görüşündən sonra Azərbaycan Elmlər Akademiyasında və onun bütün elmi bölmələrində həyata keçirilmiş tədbirlər nəticəsində bu elm ocağının fəaliyyətində xeyli müsbət dəyişikliklər baş vermiş və böyük canlanma başlamışdır. Həmin görüşdə Heydər Əliyev demişdir: “XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir... Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir... Biz akademiyanın hörmətini qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz!”. Heydər Əliyevin 2001-ci il 15 may tarixli “Azərbaycan Milli Elmlər Akademiyası haqqında” fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına ən yüksək ali dövlət elm təşkilatı statusu verilməsi, 2001-ci il avqustun 7-də akademiyanın Naxçıvan bölməsinin yaradılması, 2003-cü il yanvar ayının 4-də Milli Elmlər Akademiyasının statusu, nizamnaməsi və prezidentinin təsdiq edilməsi, 2004-cü ilin yanvar ayının əvvəllərində elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə vəzifə maaşlarının 5 dəfə, akademiyanın həqiqi və müxbir üzvlərinin rütbə maaşlarının və bütünlükdə əməkdaşların maaşlarının nəzərə çarpacaq dərəcədə artırılması, akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı fərman və sərəncamları və nəhayət Heydər Əliyevin “Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir, onu qoruyub saxlamaq lazımdır” — deməsi bu gün akademiyamızın yaşayıb fəaliyyət göstərməsi üçün möhkəm əsas yaratmışdır.

Ulu öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirən cənab Prezident İlham Əliyev də ölkəmizə rəhbərliyə başladığı ilk günlərdən elm adamlarına böyük qayğı ilə yanaşmış və alimlərimizin əməyinə yüksək qiymət vermişdir. O, AMEA-nın 70 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaqdakı nitqində demişdir: “Bu 70 ildə Akademiya böyük və uğurlu yol keçmişdir. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Kadr hazırlığı işinə də dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını aparaq ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər. Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır”. Ulu öndər Heydər Əliyevin yolunu müdrikliklə davam etdirən Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi islahatların uğurla başa çatmasının da əsas səbəbi bir tərəfdən onun qətiyyəti, rəhbərlik etmək qabiliyyəti və praqmatik düşüncəyə malik olması ilə bağlıdırsa, digər tərəfdən də həyata keçirdiyi siyasət və tədbirlərin məhz möhkəm elmi əsaslara söykənməsi ilə izah edilir. Təsadüfi deyildir ki, Ulu öndər Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də onun layiqli siyasi varisi Azərbaycan xalqına müraciətində demişdir ki: **“O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.**

Azərbaycan xalqı öz ümummilli liderinin bu çağırışını cavabsız qoymadı və 2003 və 2008-ci illərdə olduğu kimi, 2018-ci ilin 11 aprelində keçirilmiş prezident seçkilərində də böyük etimad göstərərək cənab İlham Əliyevi üçüncü dəfə özünə rəhbər seçdi. Prezident İlham Əliyev 18 aprel 2018-ci ildə Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş andiçmə mərasimindəki nitqində demişdir: **“Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur”.**

Azərbaycanın hərtərəfli inkişafı, yüksək beynəlxalq nüfuzu təsdiq edir ki, cənab İlham Heydər oğlu Əliyev 2003-cü ildə ölkə prezidenti seçilərkən - öz xalqı, ölkəsi qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də ağır vəzifənin öhdəsindən bacarıqla gələrək sahib durduğu siyasi kursu ləyaqətlə yerinə yetirməklə malik olduğu bütün keyfiyyətlərinə görə xalqımızın lideri səviyyəsinə yüksəlmişdir. Son 15 il ərzində dövlət başçısı Ulu öndər Heydər Əliyevin elmi əsaslara söykənən iqtisadi inkişaf strategiyasını daha da inkişaf etdirərək Azərbaycanı dünyanın lider dövlətləri sırasına, onun iqtisadi inkişaf səviyyəsinin isə keyfiyyətcə yeni mərhələyə keçməsinə nail olmuşdur. Onun 2003-cü il 24 noyabr tarixli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında”; 2004-cü il 1 iyul tarixli “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında”; 2005-ci il 11 noyabr tarixli “Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında”; 26 oktyabr 2005-ci il tarixli “Azərbaycan Respublikasının məşğulluq strategiyasının (2006-2015-ci illər) təsdiq edilməsi haqqında”; 2009-cu il 14 aprel tarixli “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və 2014-cü il 27 fevral tarixli “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında və s. fərman və sərəncamları bu deyilənlərə əyani sübutdur. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasını rəhbər tutan ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilmiş iqtisadi siyasət nəticəsində son 15 ildə respublikamızda əldə edilmiş bütün nailiyyətlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, AMEA-nın akademiki Ramiz Mehdiyevin 17 aprel 2018-ci il tarixdə “Respublika” qəzetində çap edilmiş dərin məzmunlu, elmi cəhətdən əsaslandırılmış və real faktlara söykənən “Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri” sərlöhəli sanballı məqaləsində geniş və müfəssəl surətdə ictimaiyyətə təqdim edilmişdir. Buna görə də Ulu öndərimiz Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyimiz bu məqalədə cənab İlham Əliyevin son 15 ildə ölkəmizə rəhbərlik etdiyi dövrdə qazanılmış yalnız bəzi iqtisadi nailiyyətlərin üzərində dayanmaqla kifayətlənməli olduq. Son 15 ildə iqtisadi inkişaf sahəsində qazanılmış ən böyük nailiyyətlərindən biri ölkə iqtisadiyyatının 3,2; sənaye istehsalının 2,6; qeyri-neft sektoru üzrə ÜDM-un 2,8; qeyri-neft sənayesinin 2,2; kənd təsərrüfatının isə 1,7 dəfə artmasından ibarətdir. Nəticədə ölkəmizin dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq 2003-cü ildəki 1,2 milyard manatdan 2018-ci ildə 20,1 milyard manata, dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri isə 2003-cü ilə nisbətən 11,4 dəfə artaraq 2017-ci ildə 8,6 milyard manata çatmışdır. Bu dövrdə əsas kapitala yönəldilmiş vəsaitlərin məbləği 4,4 dəfə artaraq 3,8 milyard manatdan 16,8 milyard manata qalxmış, valyuta ehtiyatlarımızın həcmi isə 26,2 dəfə artaraq 2002-ci ildəki 1,6 milyard ABŞ dollarından 2017-ci ildə 42 milyard ABŞ dollarına çatmışdır. Əlamətdar haldır ki, hazırda ölkəmizin xarici dövlət borcları UDM-un cəmi 20 faizini təşkil edir. Bu da dünya miqyasında ən yaxşı göstərici hesab olunur. İndi respublikamız xarici sərmayələrin qoyuluşu səviyyəsinə görə də MDB ölkələri arasında lider dövlətə çevrilmiş və son 15 il ərzində ölkə iqtisadiyyatına 231 milyard ABŞ dolları həcmində sərmayə yatırdılmışdır. Bütün bunların nəticəsidir ki, bu illər ərzində ölkəmizdə 1,9 milyon yeni iş yeri açılmış və onların 1,4 milyonu və ya 73,7 faizi daimi iş yerlərinin payına düşmüşdür. Həmin iş yerlərinin 72,0 faizindən çoxu isə ölkənin regionlarında yaradılmışdır. Bu dövrdə respublikamızın əhalisinin sayı da sürətlə, yəni 18,6 faiz və ya 1540,8 min nəfər artaraq 8269,2 min nəfərdən 9810,0 min nəfərə, iqtisadiyyatda məşğul olanların sayı 19,8 faiz və ya 787,3 min nəfər artaraq 3972,6 min nəfərdən 4759,9 min nəfərə gəlib çatmış, işsizlərin sayı 36,9 faiz və ya 148,1 min nəfər azalaraq 400,9 min nəfərdən 252,8 min nəfərə, işsizlik səviyyəsi isə 4,7 faiz bənd azalaraq 9,7 faizdən 5,0 faizə düşmüşdür. Son 15 il ərzində respublikamızda bazar münasibətlərinin formalaşması və inkişafına uyğun olaraq iqtisadiyyatın və deməli, həm də əhalinin məşğulluq quruluşunda da əhəmiyyətli dəyişiklik baş vermişdir. Belə ki, əgər 1995-ci ildə ölkəmizin dövlət strukturunda iqtisadiyyatda məşğul olanların 56 faizi çalışırdısa, hazırda bu göstərici 24,6 faizə yenmiş; qeyri-dövlət sektorunda məşğul olanların xüsusi çəkisi isə 44,0 faizdən 65,4 faizə qalxmışdır. Bu isə o deməkdir ki, indi ölkəmizdə yeni iş yerlərinin yaradılması daha çox özəl sektorun inkişafından asılıdır. Ona görə də Azərbaycan dövləti bu sektorun, xüsusilə də kiçik biznesin inkişafına daha çox qayğı göstərir. Təsadüfi deyildir ki, 2003-2007-ci illərdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 34535 sahibkara 2,1 milyard manat güzəştli kredit verilmiş və burada 154 minə yaxın yeni iş yeri açılmışdır. Həmin kreditlərin 71,6 faizi aqrar sektorun, 28,4 faizi isə digər sahələrin inkişafına yönəldilmişdir. Son 15 ildə əldə olunmuş ən müsbət dəyişikliklərdən biri də dövlət büdcəsinin sosialyönümlü xərclərinin 10 dəfə artaraq 7,0 milyard manata, o cümlədən sosial müdafiə və sosial təminat xərclərinin 11 dəfə artaraq 2,4 milyard manata; səhiyyə xərclərinin 12,7 dəfə artaraq 55,3 milyon manatdan 704,9 milyon manata, orta aylıq əmək haqqının 8,4 dəfə artaraq 528,2 manata çatması; yoxsulluğun səviyyəsinin isə 8,8 dəfə azalaraq 44,7 faizdən 5,4 faizə düşməsidir. Eyni zamanda bu illər ərzində ölkədə 3100-dən çox məktəb, 640-dan çox xəstəxana inşa edilmiş və təmir olunmuşdur.

Bütün bu yuxarıda deyilənlərin nəticəsidir ki, hazırda Azərbaycan sosial-iqtisadi sahədəki inkişafına görə nəinki regionda, hətta dünyada seçilən lider dövlətlərdən biri kimi tanınır. Təsadüfi deyildir ki, 2017-ci ildə Azərbaycan “Donig Business” hesabatında 190 ölkə arasında 57-ci yerə; Davos İqtisadi Forumunun hesabatında isə rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görülmüş və inkişafda olan ölkələr arasında İnklüziv inkişaf göstəricisinə görə isə 3-cü yeri tutur.

**Bu nailiyyətlər tarixi hadisə kimi ölkə başçısı cənab İlham Əliyevin Ulu öndər Heydər Əliyevin yolu ilə gedərək həyata keçirdiyi uğurlu iqtisadi inkişaf strategiyasının və Azərbaycan xalqının ona verdiyi dəstəyin təntənəsidir. Heç şübhə yoxdur ki, Azərbaycan xalqı və onun Prezidenti cənab İlham Əliyev yaxın və uzaq gələcəkdə də ölkəmiz üçün qəbul edilmiş yeganə doğru istiqamət olan Ulu öndər Heydər Əliyevin yolu ilə gedərək Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmağı və xalqımızın həyat səviyyəsini daha da yüksək səviyyəyə qaldırmağı bacaracaq.**

**Şahbaz MURADOV,**
**Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, i.e.d., professor.**

# Hər bir azərbaycanlının fəxri



Müasir Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi nəinki ölkəmizdə, bütün türk dünyasında qeyd olunur, silsilə tədbirlər keçirilir. Belə bir dönəmdə öndərimiz haqqında fikir söyləmək həddən artıq böyük məsuliyyət tələb etdiyi qədər də şərəflidir. O da bir tarixi həqiqətdir ki, hər bir ölkəni, dövləti, milləti dünyaya tanıdan ilk növbədə onun siyasi xadimləri, tarixi şəxsiyyətləri olur. Onlar öz xalqının və millətinin layiqli təmsilçiləri kimi həm özlərinə, həm də öz xalqlarına tarixdə əbədi iz qoyur, doğma Vətənlərinin tarixini zənginləşdirməklə bərabər onun dünya arenasında tanınmasında və nüfuzunun yüksəlməsində misilsiz rol oynayırlar. Məhz bu baxımdan Azərbaycan xalqının əbədiyaşar lideri Heydər Əliyevin gördüyü işləri heç bir dövlət rəhbərinin gördüyü işlərlə müqayisə etmək olmaz.

Heydər Əliyev o tarixi şəxsiyyətlərdəndir ki, daim xatırlanır, heç vaxt unudulmur və unudulmayacaqdır. ...Ona görə ki, o öz xalqı, Vətəni üçün çoxlarının görə bilmədiyi işləri görmüş, ölkəsinin gələcək inkişaf yollarını düzgün müəyyənləşdirib cəmiyyəti bu yolun doğruluğuna inandıra bilmişdir. Ən başlıcası odur ki, o öz xalqının müdrik rəhbəri kimi hər bir azərbaycanlını müstəqilliyimizin qədrini bilməyə, onu göz bəbəyi kimi qorumağa və yaşatmağa istiqamətləndirə bilmişdir.

Həyatının bütün mənasını Azərbaycan xalqına və dövlətinə xidmətdə görən, “Mən fəxr edirəm ki, Azərbaycanlıyam” deyəndə öz sevinci ilə qürur duyan və bu sevinci hər bir azərbaycanlıya bəxş edən ulu öndər hələ sovet imperiyası dövründə hər bir addımı, sözü, hərəkəti ilə bunu təsdiq etmişdir. Sovet rejiminin ciddi nəzarəti altında olduğu halda, Azərbaycanın mənafelərini göz bəbəyi kimi qoruyan bu böyük insan Azərbaycanın müstəqilliyini dünyanın ən böyük neməti hesab etmiş, bu müstəqilliyin əbədi olması, gündən-günə möhkəmlənməsi və Azərbaycanın dünyada tanıdılması üçün bütün varlığı ilə çalışmışdır.

Sovet dönəmində respublikaya rəhbərlik etdiyi illərdə o, keçmiş ittifaqın aqrar respublikalarından biri kimi tanınan Azərbaycanı sənaye ölkəsinə çevirmiş, onun təkcə Bakı nefti ilə deyil, o dövrün ən müasir texnologiyaları əsasında buraxılan məhsulları ilə tanınmasına nail olmuşdur. Heydər Əliyev Azərbaycanı ittifaq büdcəsinin dotasiyasından asılı olmayan, özünü tam təchiz edə bilən bir respublika kimi tanıda bilmişdir.

Böyük rəhbərin səyləri ilə Azərbaycanın iqtisadi potensialı dəfələrlə güclənmiş, keçmiş ittifaq respublikalarının arasında aparıcı mövqelərə çıxmışdır. Heydər Əliyev bütün sahələrdə əldə edilmiş nailiyyətlərə görə Azərbaycanın o dövrün ən yüksək dövlət mükafatlarını qazanmasında, zəngin enerji istehsalçısına çevrilməsində, respublikaya ən yeni texnologiyaların gətirilməsində, bütün istiqamətlərdə inkişafın əldə edilməsində böyük xidmətlər göstərmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyi təhlükə altında olanda, ölkə son dərəcə ciddi ictimai-siyasi problemlərlə, iqtisadi çətinliklərlə, hərbi qarşıdurma ilə üzləşdiyi tarixi anlarda xalqımız ulu öndər Heydər Əliyevə müraciət etdi və onun hakimiyyətə qayıdışını zəruri saydı. “Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəm”. 1993-cü il oktyabrın 3-də Prezident seçilən ulu öndər Heydər Əliyevin andiçmə mərasimində səsləndirdiyi bu fikirlər gələcəyə işıq salmaqla yanaşı, onun dövlətinə, xalqına necə bağlı olduğunu da təsdiqləmişdir.

Dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı dövrünün səciyyəvi xüsusiyyətləri indiki orta və yaşlı nəslin yaxşı xatirindədir. Bu o dövr idi ki, Azərbaycan müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə çətin durumda xalq üzünü öz xilaskarına - ulu öndər Heydər Əliyevə tutdu. Azərbaycanın o zamankı rəhbərləri də böyük öndəri rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Dahi şəxsiyyət 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Prezident seçildi.

Tarixi paralellər apardıqda bu reallıq özünü qabarıq şəkildə büruzə verir ki, sovetlər birliyi dövründə Azərbaycana rəhbərlik edən ulu öndər ölkəmizi qabaqcıl respublikalar sırasına çıxardığı kimi 1993-cü ildə siyasətə qayıdışı ilə dövlətçilik tarixinin yeni mərhələsinin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu. Müstəqil, iqtisadi cəhətdən qüdrətli, vahid, dünya birliyinin tanıyıb, hörmət etdiyi Azərbaycan kimi bir dövləti yaratmaq xilaskar kimi ona nəsib oldu.

Xalq-iqtidar birliyinin möhkəmliyi sayəsində atılan addımlar öz uğurlu nəticəsini verdi. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə sabitlik yarandı, iqtisadi tərəqqinin təmin edilməsi üçün zəruri olan addımlar gerçəkləşdirildi. İqtisadi tərəqqini ölkənin hərtərəfli inkişafında vacib amil kimi önə çəkən ulu öndər Heydər Əliyev ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəni qarşıya mühüm vəzifə kimi qoydu. Eyni zamanda, bu fikri bəyan etdi ki, heç bir ölkə qarşılıqlı təcrübə mübadiləsi olmadan, səylər birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Bir əsas məqamı da xüsusi qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişi imzalandı. Atılan bu addım müstəqil Azərbaycanın sonrakı uğurlarında əhəmiyyətli rola malik oldu. Belə ki, ölkədə sabitliyin, normal biznes mühitinin yaradılması Azərbaycana inamın artmasına səbəb oldu. 1994-cü il sentyabrın 20-də tarixə “Əsrin müqaviləsi” kimi daxil olan neft kontraktının imzalanması buna əyani sübutdur.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul olunmuş ilk Milli Konstitusiyası ölkədə yeni iqtisadi sistemə keçidin hüquqi əsası oldu və o vaxtdan ölkəmizin iqtisadi həyatının yeni mərhələsi başlandı.

Böyük öndərin bazar iqtisadiyyatına keçidi təmin edəcək islahatların dərinləşdirilməsində özəlləşdirməyə həlledici yer verilirdi. Kiçik özəlləşdirmə adlanan proses xidmət sahələrinin, ticarətin, tikinti və nəqliyyatda bir sıra sahələrin özəlləşdirilməsi bazar münasibətlərinə keçidi təmin etdi.

Bu sahədəki təcrübə orta və iri müəssisələrin özəlləşdirilməsi prosesini uğurla davam etdirməyə imkan verdi. Bununla belə ölkə əhalisinin 40 faizdən çoxunun yaşadığı kənd yerlərini bazar münasibətlərinə cəlb etmədən yeni iqtisadiyyatın yaradılması təmin oluna bilməzdi. Bu isə ilk növbədə, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi - yəni aqrar islahatın aparılması nəticəsində mümkün idi. Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda çox cəsarətli, keçmiş SSRİ məkanında bənzəri olmayan torpaq islahatının həyata keçirilməsi Azərbaycan kəndində bütün təsərrüfat subyektini, kəndin həyat tərzini kökündən dəyişdi.

Ümummilli liderin iqtisadi strategiyasında ölkəyə xarici sərmayələrin cəlb edilməsi xüsusi yer tuturdu. İlk vaxtlar əsasən Azərbaycanın yeni neft strategiyasının reallaşdırılması ilə bağlı qoyulan xarici sərmayələr getdikcə iqtisadiyyatın digər sahələrinə, infrastruktur layihələrinə də yönəldilirdi. Ölkədə əlverişli sərmayə mühitinin yaradılması, o cümlədən xarici sərmayələrin qoyulması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür, müvafiq qanunvericilik bazası yaradılırdı.

Bəli, Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətinin iqtisadi siyasəti bazar münasibətləri yolu ilə inkişaf etdirmək istiqaməti yönündə quruldu. Bunun üçün 1995-ci ildən başlayaraq ardıcıl surətdə iqtisadi islahatlar həyata keçirilməyə başlandı. Məmnunluqla bildirmək olar ki, məhz bu iqtisadi siyasət tədricən öz müsbət nəticələrini verməyə başladı. 1990-cı ilin əvvəllərində böhran vəziyyətində olan müstəqil respublikanın iqtisadiyyatı 1995-ci ildən başlayaraq dönməz xarakter aldı. Ölkədə özəlləşməyə start verilməsi, yeni iqtisadi kursun başlanması birmənalı olaraq zamanın tələbi olmaqla, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün geniş imkanlar açdı. Azərbaycan vətəndaşları ölkənin bütün regionlarında istər şəhərdə, istərsə də kənd və qəsəbələrdə öz əmlaklarından və digər şəxsi imkanlarından istifadə edərək sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladılar.

Burada bir faktı xatırlatmaq yerinə düşər. 2002-ci ilin aprel ayında ulu öndər Heydər Əliyev yerli sahibkarlarla görüşündə demişdir: “İndi Azərbaycanda böyük sahibkarlar təbəqəsi yaranıb. Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir. Özəlləşdirmə prosesi gedir, iqtisadiyyatın çox hissəsi özəlləşdirilib. Əldə etdiyimiz nailiyyətlərdə özəlləşdirmənin böyük əhəmiyyəti vardır. İqtisadiyyatın bir çox sahələrindəki nəticələr özəl sektorun hesabına əldə edilib. Bir daha deyirəm, özəl sektorun yaradıcıları, özəl sektorun aparıcıları sahibkarlar qrupunu, sahibkarlar təbəqəsini meydana gətirir”.

Özəl sektorun inkişafına və sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə dövlət səviyyəsində diqqət və qayğı göstərilməsi ön plana çəkildi. Bu sahədə onlara güzəştli kreditlərin verilməsi, investisiyalar yatırılması dediklərimizin əyani sübutudur. Hələ o vaxtlar ümummilli lider Heydər Əliyev bu tendensiyanı böyük uzaqgörənliklə belə dəyərləndirmişdi: “İndi bizim sosial-iqtisadi inkişafımız sahibkarların fəaliyyətindən asılıdır. Çünki əgər iqtisadiyyat özəlləşdirilibsə, demək, iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycan iqtisadiyyatının inkişafını təmin edən amildir. Ona görə də biz buna dövlət siyasətimizin böyük bir hissəsi kimi baxırıq”.

Zaman göstərdi ki, sahibkarlıq fəaliyyəti Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmin edilməsində xüsusi rol oynayır. Təsadüfi deyildir ki, son illər ölkə iqtisadiyyatının ümumi daxili məhsulunda özəl sektorun payı 80 faizə qədərdir.

Ümummilli lider Heydər Əliyevin bu sahədə başladığı strategiyanı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müasir dövrün tələblərinə uyğun uğurla davam etdirir. Ölkəmizin rəhbərinin nitqlərinin birində dediyi fikirlər bir daha bunu təsdiq edir: “Sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Bildiyiniz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir... Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq. Mən bunu dəstəkləyirəm ki, fermerlər, iş adamları daha da rahat işləsinlər, daha da böyük gəlir əldə etsinlər. Yəni, dövlət çalışır ki, bu məsələ daim diqqət mərkəzində qalsın. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb”.

Ümumiyyətlə, deyə bilərik ki, son illərdə özəl sektorun, azad sahibkarlığın inkişafı üçün dövlət səviyyəsində çox böyük işlər görülüb. Ölkə rəhbəri tərəfindən imzalanan fərman və sərəncamlar, qanunlar, Dövlət proqramları azad sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır. Həmçinin xüsusi vurğulaya bilərəm ki, artıq üçüncü ildir ki, hər il aprelin 25-nin ölkəmizdə “Sahibkarlar günü”nün qeyd edilməsi də bu sahədə atılan uğurlu addımlardan biridir. Belə ki, möhtərəm Prezidentimizin 21 aprel 2016-cı il tarixli sərəncamı ilə “Sahibkarlar günü” təsis edilmişdir.

Bu gün müasir Azərbaycanın bütün sahələrdə nail olduğu uğurlar vaxtilə onların təməlini qoyan və inkişaf perspektivini istiqamətləndirən dünya şöhrətli siyasətçi, xalqın böyük oğlu Heydər Əliyevin ölçüyəgəlməz fəaliyyətinin bəhrəsidir.

**Yusif NƏSİBOV,**
**“Nəzər” kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisəsinin direktoru, sahibkar.**

# Prokurorluğun əməkdaşları növbəti ağacəkmə kampaniyası keçiriblər

**Mayın 5-də Baş Prokurorluğun, Bakı Şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə ağacəkmə kampaniyası keçiriblər.**



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, son illər respublikamızda yaşıllıqların artırılması, yeni park və xiyabanların salınmasına diqqət artırılıb. Yaradılan parklar və yaşıllıqlar sakinlərdə xoş əhval-ruhiyyə yaradır. Əkilən ağaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə yeni çalarlar əlavə edir. Əsas məqsəd paytaxtın ekoloji cəhətdən sağlamlaşdırılmasına töhfə verməkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirib. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının əməkdaşları da bu xeyirxah və nəcib tədbirdə həmişə yüksək əhval-ruhiyyə ilə iştirak ediblər.

Ulu Öndərin əsasını qoyduğu ekoloji siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dövlətimizin başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin Baş Prokurorluqda yaranmış ənənəyə uyğun olaraq, prokurorluq orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçiriblər.



Tədbir çərçivəsində paytaxtın Suraxanı rayonu ərazisində Hövsan qəsəbəsinin yaxınlığında 2 hektar ərazidə mindən artıq zeytun və Eldar şamı ağacları əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**AZƏRTAC**

# Bakıda “Tahir Salahovun xalça dünyası. Portretlər” adlı sərgi açılıb

**Azərbaycan Xalça Muzeyində “Tahir Salahovun xalça dünyası. Portretlər” adlı sərgi açılıb.**

Muzeydən AZƏRTAC-a bildirilib ki, sərgi çərçivəsində Xalq Rəssamı Tahir Salahovun müəllifi olduğu bir neçə rəngkarlıq əsərlərinin əsasında Əməkdar Rəssam Taryer Bəşirovun texniki layihəsi və rəhbərliyi ilə toxunan xalçaların təqdimatı olub.



Tədbirin Ulu Öndərin 95 illiyi çərçivəsində keçirildiyini deyən muzeyin direktoru Şirin Məlikova bildirib ki, dünyada ilk dəfə olaraq ən zəngin və güclü xalçaçılıq ənənələrinə malik Xalça Muzeyinin yaranması da Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda muzey işinin inkişafında ümummilli Liderin xidmətlərini xatırladan Ş.Məlikova, bu gün Xalça Muzeyi və ümumilikdə, xalçaçılıq sənətinin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqətində olduğunu söyləyib.

Ş.Məlikova Xalq Rəssamının əsərlərinin dünyanın nüfuzlu muzeylərində və rəsm qalereyalarında mütəmadi olaraq nümayiş olunduğunu diqqətə çatdırıb. O qeyd edib ki, rəhbəri olduğu muzeyin də ekspozisiyasında görkəmli rəssamın məşhur əsərlərini görmək mümkündür.

“Bu möhtəşəm tablolar xalça sənəti dilinə köçürülmüş yeni əsərlərdir. Artıq bir neçə ildir ki, Tahir Salahov bu sahədə yeni eksperimentlər edir. O, hər zaman yorulmadan yeni üfüqləri kəşf edən yaradıcı şəxsiyyətdir. Xalça da artıq onun yaradıcılığında öz yerini tutmağa başlayır”, - deyə muzeyin direktoru vurğulayıb. O, yeni xalçalarını muzeyə təqdim etdiyi üçün Tahir Salahova təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev sənətkarın yaradıcılığını yüksək qiymətləndirərək onun əsərlərinin dünyanın bütün nüfuzlu muzey və qalereyalarında sərgiləndiyini, eyni zamanda, yeni əsərlərinin böyük marağa səbəb olduğunu vurğulayıb.

Ə.Qarayev ümummilli lider Heydər Əliyevin hər zaman mədəniyyətimizin və milli ənənələrimizin təbliğinə yüksək qiymət verdiyini və bu gün də bu ənənələrin yaşadığını diqqətə çatdırıb.

Xalça Muzeyinin baş rəssamı, Əməkdar Rəssam Taryer Bəşirov görkəmli rəssamın əsərlərindən ilhamlanaraq yaratdığı xalçaların ərsəyə gəlməsindən, təqdim olunan xalçaların bədii xüsusiyyətlərindən söz açıb. Bildirib ki, buraya ulu öndərin Heydər Əliyev Fondunda saxlanılan portretinin reproduksiyası, Maqsud İbrahimbəyov və Koroğlu portretləri daxildir.

Sonda çıxış edən Xalq Rəssamı Tahir Salahov hər bir əsərinin yaranma tarixçəsindən danışıb, sərgiyə təqdim olunan xalçaların özünəməxsus keyfiyyətlərindən bəhs edib. Bununla yanaşı, Tahir Salahov Ulu Öndərin xatirəsini ehtiramla yad edərək, onunla bağlı xatirələrini bölüşüb. Xalq Rəssamı tədbirin təşkilinə görə nazirliyin və muzeyin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Sərgidə ümummilli lider Heydər Əliyevin, bəstəkar Fikrət Əmirovun, Xalq Yazıçısı Maqsud İbrahimbəyovun və xalq qəhrəmanı Koroğlunun portretləri toxunan xalçalar nümayiş olunub.

**AZƏRTAC**

*Nazir İnam Kərimov:*

# Cocuq Mərcanlı sakinlərinə aqrar sahədə daim dəstək göstərilməlidir

**Kənd təsərrüfatı naziri İnam Kərimov mayın 5-də Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nazir İnam Kərimov Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı ilə birgə əvvəlcə Horadiz şəhərində “Aprel şəhidlərinə xatirə” abidəsini ziyarət edib.



Cocuq Mərcanlıya gələn İnam Kərimov kənd sakinləri ilə görüşərək, onların qayğı və problemləri ilə maraqlanıb, arzu və təkliflərini dinləyib. Nazir bildirib ki, Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq nazirliyin rəsmiləri, mütəxəssislər fermerlərlə, kənd əməkçiləri ilə görüşlər keçirirlər.

“Prezident İlham Əliyevin tapşırığı əsasında Cocuq Mərcanlıda qısa müddətdə müasir, bütün infrastruktura malik qəsəbə salınıb. Kənddə inkişafın əsas tərkib hissəsindən biri də burada aqrar fəaliyyətin genişlənməsi, sakinlərin məşğulluğunun təmin edilməsidir. Bugünkü görüşümüzün məqsədi də sakinlərin qayğılarını dinləmək və buna uyğun fəaliyyətimizi qurmaqdır. Cocuq Mərcanlı sakinlərinə aqrar sahədə daim dəstək verib, qayğı göstərilməlidir”, - deyə nazir bildirib.

İnam Kərimov Cocuq Mərcanlı kəndində 25 ildən sonra ilk dəfə olaraq qarğıdalı səpinində iştirak edib.

Nazir İnam Kərimov jurnalistlərə müsahibəsində Cocuq Mərcanlıda sakinlər üçün ayrılan pay torpağının əkilməsi, becərilməsi və məhsul yığımı zamanı istifadə olunan bütün texnikaların, həmçinin gübrə və toxumların Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əvəzsiz olaraq təmin ediləcəyini bildirib: “Hazırda Cocuq Mərcanlıda 33 hektarda qarğıdalı səpini həyata keçirilir. Biz nəinki səpin prosesində, mütəmadi olaraq fermerlərin, kənd sakinlərinin yanında olacağıq. Onlara həm texnika təminatı, həm də məhsuldarlığın artırılması üçün məsləhət xidmətlərinin təşkilini həyata keçirəcəyik”.

**AZƏRTAC**

# Türkiyənin İzmir şəhərində Bakı Parkının açılışı olub

**Türkiyənin İzmir şəhərinin Narlıdərə rayonu ərazisində Bakı Parkının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən mərasimdə rəsmilər, Azərbaycanı və Türkiyəni təmsil edən tanınmış şəxslər, habelə yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.




Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, İzmir Böyükşəhər Bələdiyyəsinin sədri Əziz Kocaoğlu, Narlıdərə rayon bələdiyyəsinin sədri Əbdül Batur, İzmirdə fəaliyyət göstərən Azərbaycan Qardaşlıq və Əməkdaşlıq Dərnəyinin sədri Asif Qurbanlı çıxış edərək Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərindən danışıblar. Diqqətə çatdırılıb ki, Bakı Parkının açılışı qardaş Türkiyə xalqının Azərbaycana və paytaxtımıza olan tükənməz sevgisinin təzahürüdür.

Sonra Azərbaycan əsilli şair Tuğrul Kəskin Azərbaycan və Bakı haqqında şeirlər söyləyib.

Yerli sakinlər bayramsayağı bəzədilmiş Bakı Parkının açılışını rəğbətlə qarşılayıblar.

**AZƏRTAC**

# Akademik Rəfiqə Əliyevanın qəbirüstü abidə kompleksinin açılış mərasimi keçirilib





**Görkəmli kimyaçı alim, Bakı Dövlət Universitetinin ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı, Əməkdar Elm Xadimi, “Şöhrət” ordenli Rəfiqə Əliyevanın vəfatından bir il ötür.**

AZƏRTAC xəbər verir ki, mayın 5-də Fəxri xiyabanda görkəmli alimin qəbirüstü abidə kompleksinin açılış mərasimi keçirilib. Tədbirdə mərhumun ailə üzvləri, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Məzarın önünə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın adından əklil qoyulub.

Tədbir iştirakçıları Rəfiqə Əliyevanın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

### Azərbaycanda analitik kimya sahəsində ilk qadın akademik

Mərasimi açan Bakı Dövlət Universitetinin (BDU) rektoru, akademik Abel Məhərrəmov ömrünün böyük hissəsini BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edən Rəfiqə Əliyevanın Azərbaycan kimya elminin inkişafındakı müstəsna xidmətlərindən bəhs edib. Bildirib ki, görkəmli alim ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı və rəhbəri kimi məhsuldar elmi-pedaqoji fəaliyyət göstərib. Analitik kimya sahəsində ilk qadın akademik olan Rəfiqə Əliyeva elmi məktəb formalaşdırıb, bu məktəbin yetirmələri kimya elminə öz töhfələrini verirlər. “Gözəl müəllim idi, tələbələrinə analıq qayğısı göstərirdi. Ehtiyacı olan tələbənin əlindən tutaraq universitet rəhbərliyinin yanına gətirər, ona yataqxanada yer ayrılması, təqaüd verilməsi üçün müraciət edərdi. Tələbələr onun qrupuna düşməyə çalışardılar. Biz Rəfiqə xanımın 70 və 80 illik yubileylərini keçirmək istəyəndə, bununla razılaşmadı. Yalnız vəfatından sonra biz onun 85 illik yubileyini qeyd edə bildik. Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının önündə onun barelyefi açıldı, adına təqaüd təsis edildi, elmi yaradıcılığına həsr edilən beynəlxalq konfrans keçirildi”, - deyə akademik Abel Məhərrəmov diqqətə çatdırıb.

Qeyd edilib ki, Rəfiqə Əliyeva 1957-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə universitetin kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər universitetin analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi ilə 20-dən çox fəlsəfə və elmlər doktorları yetişib.

Akademik Abel Məhərrəmov deyib: “Rəfiqə xanım böyük müəllim, alim olmaqla yanaşı, cəmiyyətdə gedən keçid dövrü proseslərinə fədakarlıqla sinə gərdi. Dünyaya gələn insan bir gün də bu dünyadan köçür, ancaq onun gördüyü işlər və yaratdıqları qalır. Rəfiqə xanımın əsərləri tələbələri və ailəsidir. Onun ailə üzvləri Azərbaycan cəmiyyətində özlərini təsdiqləyiblər”.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə, Milli Məclisin deputatları Elmira Axundova və Rafael Hüseynov, Milli Nüvə Tədqiqatları Mərkəzinin sədri, akademik Adil Qəribov, Əməkdar Memar Rasim Əliyev, tanınmış heykəltəraş, Xalq Rəssamı Natiq Əliyev çıxış edərək akademik Rəfiqə Əliyevanı dəyərli alim, xeyirxah insan kimi səciyyələndirib, onunla bağlı xatirələrini bölüşüblər.

### Rəfiqə xanım cəmiyyət üçün layiqli övladlar böyüdən ana və qayğıkeş nənə idi

“Rəfiqə xanımdan söz düşəndə xatirələrimizdə son dərəcə mədəni, sadə, mərd insan canlanır. Gözəl ana, tanınmış ictimai xadim, pedaqoq, alim və ən əsası əsl Azərbaycan xanımı - Rəfiqə xanımın həyatı bir çox qadınlara örnəkdir. Müasir Azərbaycan qadın hərəkatının tanınmış simalarından biri olan Rəfiqə Əliyeva “Dünya Azərbaycan Qadınları Birliyi”nin fəxri sədri seçilmişdi. O, Komitəmizin tədbirlərində də hər zaman fəal iştirak edər, öz dəyərli təkliflərini, məsləhətlərini verərdi.

Rəfiqə xanım böyük alim, ictimai xadim olmaqla yanaşı, cəmiyyət üçün layiqli övladlar böyüdən ana və qayğıkeş nənə idi. O öz həyatı və fəaliyyəti ilə sübut etdi ki, xanımlar həm elmlə məşğul ola bilər, həm də sağlam ailə qura və layiqli övladlar yetişdirə bilərlər. Artıq bir ildir ki, Rəfiqə xanım aramızda yoxdur. Amma buna baxmayaraq, o, həmişə hər birimizin xatirindədir. Əgər insan xatırlanırsa, deməli, yaşayır”, - deyə Hicran Hüseynova qeyd edib.

Görkəmli alim Rəfiqə Əliyevanın buraya toplaşanların hər birinin həyatında böyük yer tutduğunu qeyd edən Dilarə Seyidzadə deyib: “Klassiklərin birindən soruşanda ki, şəxsiyyətdən hansı cəhətləri gözləmək olar, o, cavabında deyib: cəhət birdir - şəxsiyyətin davranışı və əməlləri. Rəfiqə xanım hər yerdə eyni şəkildə idi, insanlara eyni gözlə baxardı, çünki ürəyi təmiz idi, əməlləri təmiz idi. Seçdiyi ixtisasına çox böyük məhəbbət və ehtiramla yanaşırdı. Görünür, uşaqlıqdan o böyük ailədə tərbiyə aldığı vaxtlardan bilirdi ki, onun insanlara, hər bir azərbaycanlıya xeyri dəyməlidir. Ən böyük xeyir isə təhsil və bilikdir. Bilik olan yerdə böyük məhəbbət olur. İnsan hər bir işə, addıma məhəbbətlə yanaşmalıdır. Biz onu Rəfiqə xanımda gördük. Biz daim Rəfiqə xanımı yad edirik. O, daim bizim yanımızdadır. Daxilimizdə onunla danışırıq. Onun xatirəsi daim yaşayacaq və əziz tutulacaq. Elə bu abidə də Rəfiqə xanımın qəlbinin incəliyini, dərin zəkasını, insanlara məhəbbətini, elm fədaisi olduğunu əks etdirir”.

Yazıçı-publisist, Əməkdar Jurnalist, Milli Məclisin deputatı Elmira Axundova Rəfiqə Əliyevanın qeyri-adi dərəcədə təvazökar insan olmasından söz açıb: “Mən Heydər Əliyev haqqında kitab üzərində işləyəndə Rəfiqə xanımdan cavanlıq illərindən danışmasını xahiş etmişdim. Deyirdi ki, “nə danışım, o, yaşca məndən qat-qat böyük idi, utanıram, necə danışım”. Bir təhər razılıq aldıq və çox gözəl xatirələrini mənimlə bölüşdü. Bu xatirələr kitabımın yaraşığı oldu. Rəfiqə xanım çox mətin insan idi, böyük iradəsi var idi. Mən böyük dost itirdim. Biz onunla təskinlik tapırıq ki, bu böyük alimin işi, tələbələri, ailəsi yaşayacaq”.

### Azərbaycan qadınına, Azərbaycan giminə ucaldılan gözəl abidə

Milli Məclisin deputatı, akademik Rafael Hüseynov deyib: “Bu gün təkcə anım günü deyil. Bu gün böyük mədəniyyət hadisəsi baş verir. Bu ucalan yalnız qəbirüstü abidə deyil, Azərbaycan mədəniyyətinin, heykəltəraşlığının bir incisi, Azərbaycan qadınına, Azərbaycan aliminə ucaldılan gözəl bir abidədir. Rəfiqə xanım Azərbaycanın tarixində analitik kimya sahəsində ilk akademik kimi qalır. Onun elm tarixinə atdığı imzanı heç kim təkrarlaya bilməyəcək. Rəfiqə Əliyeva AMEA-nın həqiqi üzvlüyünə 2014-cü ildə seçilmişdi, lakin bu, keçən əsrin 70, 80, 90-cı illərində də baş verə bilərdi. Rəfiqə xanım Heydər Əliyevin bacısı idi. O, təvazökar olmasaydı, buna nail ola bilərdi. Ömrünün böyük bir hissəsini Bakı Dövlət Universitetinə həsr etməsi də onun işinə, peşəsinə sadiqliyindən xəbər verir”.

Sonda mərhumun ailəsi adından çıxış edən qızları - BDU-nun ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və Azərbaycanın Əməkdar İncəsənət Xadimi Fəxriyyə Xələfova mərasim iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

“Buraya gələnlərə baxdıqca, Rəfiqə xanımın onlarla ayrı-ayrılıqda təması yadıma düşür. Bu insanların hər birinin qəlbində Rəfiqə xanımın öz abidəsi var. Avraam Linkolndan oxuduğu kitabların ən gözəlinin hansı olduğunu soruşanda o, cavab vermişdi ki, anamdır. Bu fikri Rəfiqə xanıma da şamil edə bilərik. O, bizim üçün ən gözəl kitabdır. O, bizim həyatımızın ən əsas müəllimidir”, - deyə Fəxriyyə Xələfova qeyd edib.

Qeyd edək ki, qəbirüstü abidə kompleksini Xalq Rəssamı, heykəltəraş Natiq Əliyev və Əməkdar Rəssam, memar Şamil Buksayev hazırlayıblar. Akademik Rəfiqə Əliyevanın heykəli özünəməxsus süjetə və kompozisiyaya malikdir. Bu mənada, kompleks həm də maarifçilik missiyasını həyata keçirir və abidə ansamblı kimi təqdim olunur. Rəfiqə xanımın heykəli vasitəsilə yaradılan obrazı xarakterik portret cizgilərini, üzündəki dərin düşüncəni əks etdirir. Bu heykəldə Rəfiqə xanımın bütün cizgiləri çox təbii şəkildə yaradılmışdır. Hətta onun əksər hallarda geyindiyi akademik mantiyası, əlindəki kitabı, yaxasındakı jabo, gözlərinin ifadəsində xəyala dalması tam portretini canlandırmağa uğurla xidmət edir. Rəfiqə xanımın qranitdən hazırlanmış heykəlində obrazın ən zəruri xarakterik cizgiləri az qala güzgüdə olduğu kimi çox dəqiq və canlı şəkildə ifadə olunub. Heykəldə lirizmin və bədii detalların zənginliyinin də özünəməxsus yeri var.

Akademik Rəfiqə Əliyevanın abidə kompleksi məşhur Avropa memarlıq üslubu olan Barokko incəsənət növü ilə Şərq memarlığının sintezinin təzahürüdür.

**AZƏRTAC**

# Kənd təsərrüfatı naziri İnam Kərimov rayonlarda məhsul istehsalçıları və fermerlərlə görüşüb

Kənd təsərrüfatı naziri İnam Kərimov Ucar rayonunda Nazirliyin dəstəyi ilə tikilməkdə olan Ucar Pambıq Emalı Zavodu ilə tanış olub. Nazirə məlumat verilib ki, zavodun illik emal gücü 40 min ton olacaq. Burada eyni zamanda 20 min ton pambıq yağı və 2500-3 min ton lifsiz pambıq toxumu istehsalı üçün müəssisələrin tikintisi və avadanlıqla təchiz olunması tədbirləri həyata keçirilir. İlin sonuna qədər zavodda işlərin yekunlaşdırılması və tam gücü ilə fəaliyyətə başlaması nəzərdə tutulur. Nazir eyni zamanda “Aqrolizinq” ASC-nin Ucar Təchizat Bazasında olaraq, orada olan texnikaların mövcud vəziyyəti və onların məhsul istehsalçılarına verilməsi prosesi ilə tanış olub. Tikintidə çalışan Çin mütəxəssisi inşa olunan Ucar Pambıq Emalı Zavodunun 80%-nin montaj və qurğularının quraşdırıldığını və yaxın günlərdə binanın tam istifadəyə veriləcəyini söyləyib.



Daha sonra nazir İnam Kərimov Ucarın rayonlararası təchizat bazasında olub, bazada lizinq yolu ilə fermer və sahibkarlara verilən kənd təsərrüfatı texnikalarına baxış keçirib. O, həmçinin bazada gübrə anbarında saxlanılan mineral gübrələrin keyfiyyəti ilə də maraqlanıb. Nazir təchizat bazasında bir qrup mexanizatorla görüşüb, onların problemləri ilə maraqlanıb və qarşılarına çıxan çətinliklərin aradan qaldırılması üçün onların təkliflərini dinləyib.

Kənd təsərrüfatı naziri İnam Kərimov Qax rayonunda kümçülərlə görüşüb. Görüşdən əvvəl nazir fermerlərin tütün şitillərini sahəyə köçürməsi prosesi ilə tanış olub və tütünçülərin qayğıları ilə maraqlanıb. Daha sonra nazir ipəkqurdunun paylanması prosesində iştirak edib. Nazir qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib və **Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2025-ci ilə qədər barama istehsalının 6 min tona çatdırılması nəzərdə tutulub.**

Nazir qeyd edib ki, dövlət başçısı tapşırıqlarının icrası ilə əlaqədar Nazirlik tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 2017-ci ildə ölkədə 245 ton yaş barama istehsal olunub və baramaçılığın yem bazasının formalaşdırılması məqsədilə 2.5 milyon tut (çəkil) tingləri tədarük olunaraq, baramaçılıq rayonlarında Çin texnologiyası əsasında intensiv bağlar salınıb. Proqramın icrası ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanıb və cari ildə Çin Xalq Respublikasından müqavilə əsasında 13 min qutu yüksək keyfiyyətli ipəkqurdu toxumları alınıb. Respublikamızın iqlim şəraiti nəzərə alınaraq, toxumlar iki mərhələdə ölkəmizə gətirilib.

Həmin gün ikinci mərhələdə inkubasiyadan çıxmış 6 min qutu ipəkqurdu dağlıq və dağətəyi zonada yerləşən 15 rayonun kümçülərinə əvəzsiz olaraq paylanıb. Bu il ölkəmizdə 450-500 ton yaş barama istehsalı nəzərdə tutulur ki, bu da keçən illə müqayisədə 2 dəfə çoxdur.

İnam Kərimov ipəkqurdu qutularını təqdim edərkən nazirliyin kənd təsarufatı idarələrinin nümayəndələrinə tapşırıb ki, qutuları kümçülərin evlərinə şəxsən aparıb təhvil versinlər, onları idarəyə dəvət etməsinlər və istənilən ünvana çatdırsınlar.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# SAMUX: UĞURLU BAŞLANĞIC YENİ NAİLİYYƏTLƏRİN ƏSASIDIR

**Samux rayonunda 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Tədbirdə Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev respublikada gedən uğurlu inkişafdan, rayonda aparılan abadlıq-quruculuq işlərindən, yeni layihələrin icrasından geniş söhbət açdı. Qeyd etdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü iqtisadi strategiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**




2018-ci ilin birinci rübünün yekunu ilə bağlı görülmüş işlərin təhlili göstərir ki, Samux rayonunun iqtisadiyyatının inkişafındakı artım dinamikası davam etmişdir. Eyni zamanda, rayonda tikinti-quruculuq və abadlıq işləri sahəsində işlər uğurla aparılmışdır. Birinci rübün sosial-iqtisadi inkişafının əsas iqtisadi göstəriciləri bunu deməyə əsas verir. Belə ki, hesabat dövründə rayon üzrə ümumi məhsul buraxılışının həcmi 26,7 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən (24,1 mln. manat) 10,9 faiz çoxdur. Cari ilin üç ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulunun həcmi 38,3 faiz artaraq 2,8 milyon manat, kənd təsərrüfatı məhsullarının həcmi 8,6 faiz artaraq 11,4 milyon manat, tikinti 14,9 faiz artaraq 2,6 milyon manat təşkil etmişdir. Hesabat dövründə pərakəndə əmtəə dövriyyəsi 4,7 faiz, əsas kapitala yönəldilən investisiya 10,9 faiz artmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri təsərrüfatların yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda rayonda "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC , Vest Milk MMC, Murovdağ Kəndli fermer təsərrüfatı, Hevandarlıq və Yemçilik müəssisəsi, "Region Aqro" MMC kimi iri sahibkar təsərrüfatları fəaliyyət göstərir. Eyni zamanda, rayonda 153 müasir istixana fəaliyyət göstərir ki, onların da ümumi sahəsi 72,6 hektardan çox təşkil edir. Bu istixanalarda il ərzində 8000 tondan çox faraş tərəvəz - pamidor, xiyar yetişdirilir. Bu məhsulların çox hissəsi MDB ölkələrinə ixrac olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsinin daha da sürətləndirilməsi ilə bağlı tapşırıq və tövsiyələrinin, imzaladığı sərəncamlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədi ilə, iqtisadiyyatının əsasını aqrar sektor təşkil edən rayonumuzda cari ildə sahələrdən yüksək məhsul əldə etmək üçün lazımi tədbirlər həyata keçirilmişdir. 2018-ci ilin məhsulu üçün 9924,0 hektar sahədə taxıl əkilmişdir ki, onun da 6293,0 hektarı buğda, 3629,0 hektarı dən üçün arpadır.

Cari ildə 2167 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır. Ondan 807,0 hektarı şəkər çuğunduru, 869,0 hektarı dən üçün günəbaxan, 168,0 hektarı kartof, 323 hektarı tərəvəzdir. Ölkə başçısının şəkər çuğunduru əkininin stimullaşdırılması ilə bağlı imzaladığı məlum sərəncamdan sonra bu sahəyə diqqət daha da artmışdır. Cari ildə 1000 hektardan yuxarı şəkər çuğunduru əkilməsi proqnozlaşdırılır.

Birinci rübdə iribuynuzlu mal-qaranın sayı 23 683 baş olmuşdur. Bundan ana inək və camışların sayı 11862 baş təşkil edir. Qoyun və keçilərin sayı 154653 başdır. 1471 ton diri çəkidə ət, 7244 ton süd, 2,5 milyon ədəd yumurta istehsal olunmuşdur. Heyvandarlıq məhsullarının istehsalında da ötən ilin müvafiq dövrü ilə müqayisədə artım vardır.

Rayon iqtsadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi, başlanmış işlərin, şəhərin küçələrinin yenidən qurulması və kəndlərarası yolların əsaslı təmiri əsas hədəflərimizdəndir. Rayonun 14 yaşayış məntəqəsini əhatə edən mərkəzləşdirilmiş içməli su sisteminin çəkilişinə başlanmışdır ki, o da uğurla başa çatdırılmalıdır; Rayonun Sərkar kənd orta məktəbi üçün 650 şagird yerlik, İnstitut qəsəbə tam orta məktəbi üçün 650 şagird yerlik yeni məktəb binalarının, Qarayeri qəsəbə 2 saylı tam orta məktəbi üçün 200 şagird yerlik, Alıuşağı kənd tam orta məktəbi üçün isə 120 şagird yerlik əlavə korpusların tikintisi həyata keçirilməsi əsas vəzifələrdəndir. Eyni zamanda, əhalinin məşğulluğunun təmin olunması üçün yeni istehsal və emal müəssisələrinin yaradılması istiqamətində də məqsədyönlü, işlər aparılacaqdır.

Çıxışının sonunda Samux RİH başçısı Alı Qocayev bildirdi ki, Samux Rayon İcra Hakimiyyəti ölkə Prezidenti tərəfindən yerli icra hakimiyyətləri qarşısında qoyulmuş vəzifələrin icrasını layiqincə yerinə yetirəcəkdir. Çıxış edənlərdən Samux Kənd Təsərrüfat İdarəsinin rəisi Rahil Həsənov, Samux Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Gülağa Bağırov, Rayon Məşğulluq İdarəsinin rəisi Yaşar Ələkbərov aparılan abadlıq-quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsindən, infrastruktur layihələrin həyata keçirilməsindən, kənd təsərrüfatı və heyvandarlıq məhsullarının istehsalından, vətəndaşların sosial-məişət və həyat tərzinin yaxşılaşmasından danışdılar.

Qərar layihəsi oxunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Şamaxı: qədim yurd müasirləşir, gözəlləşir

**Bu günlərdə Şamaxı Rayon İcra Hakimiyyətində keçirilən ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Şura iclasında rayon icra hakimiyyətinin başçısı Asif Ağayev geniş hesabat məruzəsi ilə çıxış etmişdir. Natiq vurğulamışdır ki, ötən rüb ərzində Şamaxı rayonunda qarşıya qoyulmuş vəzifələrin icrası əsasən təmin edilmişdir. Bu müddət ərzində ilkin hesablamalar əsasında rayonda 45,6 milyon manat dəyərində ümumi məhsul buraxılışı olmuşdur. Qeyd olunan müddət ərzində rayonda sənaye məhsulunun həcmi 1,8 milyon manat olmuşdur. Həmçinin 2018-ci ilin birinci rübü ərzində əsas kapitala yönəldilən investisiyaların həcmi 10,8 milyon manat, tikinti-quraşdırma işlərinin həcmi 10,7 milyon manat təşkil etmişdir.**



Rayon iqtisadiyyatında kənd təsərrüfatı sahəsi əsas yer tutur. Görülən tədbirlər nəticəsində 2018-ci ilin birinci rübü ərzində sahədə 5,9 mln. manatlıq məhsul istehsal edilmişdir ki, bunun da 100 faizi heyvandarlıq məhsullarının payına düşür. 2018-ci ilin məhsulu üçün payızlıq dənli əkin başa çatmışdır. Hazırda rayonda 40862 hektar sahədə şum çıxarılmışdır ki, bunun 38756,8 hektarı əkilmişdir. Hazırda rayonda 930 ha sahədə yaz əkininə başlanılmışdır.

Məlum olduğu kimi, keçən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Hazırda bu sahənin inkişafına xüsusi diqqət göstərilir. Bu baxımdan dövlətimizin başçısının tapşırığı ilə qəbul edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın bu sahənin yenidən dirçəldilməsində mühüm rolu olmuşdur. Hazırda rayonumuzda üzümçülük yeni inkişaf dövrünü yaşayır. Fermerlərimiz tərəfindən ötən müddət ərzində yeni üzümlüklər salınaraq bu gəlirli sahə 1710 hektara çatdırılmışdır. Bundan əlavə Meysəri kəndinin ərazisində yerləşən "Şirvan Şərabları" müəssisəsində 120 hektar yeni üzüm bağı, 40 hektar isə yeni meyvə bağı salınmışdır. Hazırda həmin müəsissədə üzüm və meyvə bağlarının əkini davam etdirilir.

Heyvandarlıq da rayon iqtisadiyyatında aparıcı sahələrdən birini təşkil edir. Rayonda iribuynuzlu mal-qaranın sayı 26846 baş, xırdabuynuzlu heyvanların sayı 138922 baş, quşların sayı isə 211300 baş olmuşdur. Bu dövrdə ət istehsalı 766,6 ton, süd istehsalı 3622,2 ton, yumurta istehsalı 3534 min ədədə, arı ailələrinin sayı isə 6870-ə çatdırılmışdır.

2018-ci ilin ötən ayları ərzində rayonda həyata keçirilən məqsədyönlü tədbirlər, ən əsası bir çox sosial problemlərin uğurlu həlli nəticəsində rayonda ictimai-siyasi sabitlik davam etmişdir. Rayonda mütəmadi qaydada aparılan bu və ya digər tədbirlər öz müsbət təsirini göstərməkdədir.

2018-ci ilin üç ayı ərzində rayonda böyük səbəkəyə malik olan təhsil, səhiyyə və mədəniyyət sahələrində də həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bir çox işlər görülmüşdür.

Rayonda 70 ümumtəhsil məktəbi, o cümlədən, 50 tam orta, 17 ümumi orta, 3 ibtidai, 21 məktəbəqədər tərbiyə, 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Təhsilə dövlət qayğısının nəticəsidir ki, 2018-ci ilin ilk rübündə Meysəri kəndində 132 şagird yerlik yeni məktəb binasının, Nağaraxana kənd tam, şəhər 8 saylı ibtidai modul tipli yeni məktəb binalarının tikintisi sona çatdırılmışdır. Bütün avadanlıqlarla təchiz olunmuş hər 3 məktəb bu yaxınlarda şagirdlərin istifadəsinə veriləcəkdir.

Cənab Prezidentin tapşırığına uyğun olaraq fevral ayının 15-dən başlayaraq əhalinin pulsuz tibbi müayinəsinə başlanılmışdır. Belə ki, bu günə kimi rayonda mövcud olan 18 yaşdan yuxarı olan 71545 nəfər əhalidən 41453 nəfəri kütləvi dispanser müayinəsinə cəlb edilmişdir.

Ölkə rəhbərinin 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında Sərəncamının icrası məqsədi ilə rayonun mədəniyyət müəssisələrində bir çox silsilə tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Şamaxılılar Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, xüsusilə dövlətimizin başçısının nitqlərində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi üçün rayonumuzda bütün qüvvə və imkanlar maksimum səfərbər ediləcəkdir.

Sonra məruzə ətrafında müzakirələr olmuş və müvafiq qərar qəbul edilmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Qubanın tarix və mədəniyyət abidələri

Respublikamızın füsunkar guşəsi olan Quba həm də mədəni sərvətləri ilə zəngindir. Rayonun ərazisində əsrlərin o tayından xəbər verən, qədim tariximizə şahidlik edən bir çox mədəniyyət abidələri mövcuddur. Hazırda rayonda 162, o cümlədən 1 dünya, 44 ölkə, 117 yerli əhəmiyyətli abidə dövlət tərəfindən mühafizə edilir. Burada eramızdan əvvəl I minilliyə, tunc dövrünə - ilk orta əsrlərə aid arxeoloji, qədim memarlıq, xatirə abidələri uzaq keçmişimizin yadigarları kimi qorunub saxlanılır. Avropanın ən uca dağ kəndlərindən biri olan Xınalıqda IX əsrə aid Atəşpərəstlər məbədi, Alpan kəndində XVI əsrə aid Subaba türbəsi, Ağbil kəndində XVI əsrə aid türbələr, I Nügədi kəndində XVIII əsrin birinci yarısına aid məscid və minarə, Quba şəhərində XVIII-XIX əsrə aid günbəzli hamam, Qudyalçay üzərindəki XIX əsrə aid Tağlı körpü,



XIX əsrə aid Səkinəxanım, Hacı Cəfər və Cümə məscidləri unikal memarlıq abidələridir.

Qubanın ən böyük memarlıq abidəsi Xınalıq kəndinin elə özüdür. Dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən bu kəndin qədim yaşayış məskəni kimi tarixi eramızdan 2 min il əvvələ gedib çıxır. Xınalıq kəndi XVII-XIX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir. Burada orta əsrlərə aid Atəşpərəstlər məbədi, Xıdır Nəbi türbəsi, Şeyx Şalbuz, Əbu Müslüm məscidləri və çoxsaylı arxeoloji abidələr mövcuddur.

Xınalıq kəndinin ən hündür yerində yerləşən Əbu Müslümün adını daşıyan məscidin tarixi təxminən X əsrin sonları, XI əsrin əvvəllərinə təsadüf edir. Bu məscid Böyük Ərəb Xilafətinin Qafqaz üzrə hərbi baş komandanı və İslam dinini Qafqaza yayan Əbu Müslümün adı ilə bağlıdır. Qədim tarixə malik Xınalıq özünəməxsus coğrafi mövqeyə malik olduğu üçün ölkə Prezidentinin 19 dekabr 2007-ci il tarixli sərəncamı ilə "Xınalıq-Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu" elan etmişdir. Qubanın qədim memarlıq abidələrinin bir hissəsi də türbələrdir. Ağbil kəndinin köhnə qəbiristanlığında yerləşən türbələrin indi cəmi 2-si qalıb. Biri düzbucaqlı planı olan kitabəsiz, digəri isə xaricdən 8 guşəli, daxildən 4 bucaqlı formaya malik "Şeyx Məzyəd" türbəsidir.

Rayonun Qırmızı Qəsəbəsində yerləşən sinaqoqlar da öz memarlıq üslubuna görə böyük maraq doğuran qiymətli tarixi abidələrdir. İsaak Xanukov küçəsində yerləşən "6 günbəz" sinaqoqu 1888-ci ildə memar Gilel ben Xaim tərəfindən inşa edilmişdir. Qəsəbədəki digər sinaqoq isə "Giləki" sinaqoqudur. Özül daşının üstündəki yazıdan məlum olur ki, məbəd 1896-cı ildə ucaldılmışdır.

Quba şəhərində bu yaxınlarda yenidən təmir olunub, istifadəyə verilmiş Günbəzli (el arasında ona "Çuxur" və ya "Bəkir" hamamı da deyirlər) hamam bütöv bir sənət əsəridir. Şərq memarlıq üslubunda tikilən bu hamam bişmiş kərpicdən inşa olunmuşdur. Tikili böyük və kiçik olmaqla 2 tağdan ibarətdir.



Alt pəncərəsi, 2 qapısı və geniş salona malik olan hamamın istilik sistemi odunla işləmişdir. Bu memarlıq abidəsi 1985-ci ilə kimi təyinatı üzrə istifadə olunmuş, sonradan fəaliyyəti dayandırılmışdır. 1986-1988-ci illərdə hamamda təmir-bərpa işləri aparılsa da, bu iş tamamən başa çatdırılmamışdır. Bu yaxınlarda burada təmir bərpa işləri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində ABŞ Dövlət Departamentinin Səfirlərin Mədəni İrsin Qorunması Fondunun maliyyə dəstəyi ilə həyata keçirilib. 2 günbəz və 14 hücrədən ibarət olan qədim tikilinin fasadı tamamilə yenilənib.

Quba şəhərində unikal memarlıq abidələrindən biri də XIX əsrə aid olan Səkinəxanım məscididir. Məscidi Səkinəxanım həyat yoldaşı Abbasqulu ağa Bakıxanovun xatirəsini əbədiləşdirmək üçün tikmişdir. Tikinti 1840-cı illərin sonunda başlamış, 1854-cü ildə başa çatmışdır. 1 otaqdan ibarət məscid binası bişmiş kərpicdən inşa olunmuşdur. Məscid 4 bucaqlı şəkildə tikilmiş, içəri tərəfdən hündürlüyü 20 metrdir.

Məşhur Cümə məscidi Qubanın mərkəzi meydanına yaxın yerdə 1802-ci ildə Qazi Nəsrulla Əfəndinin və oğlu Hacı İsmayılın təşəbbüsü və maddi yardımı ilə məşhur memar Ömər Əbu Bəkr oğlu Naxçıvani tərəfindən tikilmişdir. 1933-cü ildə məsciddə 2 mədrəsə, minarə və digər tikililər dağıdılmışdır. Respublikamız müstəqilliyini bərpa etdikdən sonra məscidin ətrafına şəbəkəli hasar çəkilmiş, su-kanalizasiya xətləri bərpa edilmiş, dəstəmazxana, digər köməkçi binalar və 41 metr hündürlüyündə minarə ucaldılmışdır. Məscid səkkiztinli prizma şəklində olub, içəri tərəfdən hündürlüyü 28 metrdir.

Keçmiş mühəndis tikililərindən dövrümüzə qədər qorunub saxlanılan abidələr içərisində Qudyalçay üzərində salınmış, mühüm tarixi-memarlıq əhəmiyyətinə malik olan Tağlı körpünün tikintisinə 1894-cü ildə başlanmışdır. Əvvəlcə körpünün 19 dirək üzərində tikilməsi nəzərdə tutulmuşdur. Lakin onun tikintisi zamanı aşırımlar ixtisar olunmuş, körpü 14 daş dayaq üzərində tikilmişdir. Yarımdairəvi biçimli tağlar sistemi bişmiş kərpicdən hörülmüş və bir-birindən 11,1 metr aralı olan dayaqlara söykənir. Körpünün tağları altından hər iki sahildəki təbiət və yaşayış məntəqələrinin ecazkar mənzərəsi açılır.

Quba respublikamızda turistlərin ən çox üz tutduğu məkandır. Rayona gələn hər kəs onun mədəniyyət və tarix abidələrinə mütləq baş çəkir, onlara heyranlıqla, heyrətlə tamaşa edirlər.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Bərdə birinci rübü nailiyyətlərlə başa vurdu






**2018-ci ilin birinci rübü ilə bağlı Bərdə Rayon İcra Hakimiyyətinin akt zalında hesabat yığınağı keçirilmişdir.**

Tədbirdə rayon icra aparatının əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri, rayon ictimaiyyətinin və KİV nümayəndələri iştirak etmişlər.

Hesabat yığıncağını rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev açaraq qeyd etdi ki, 2018-ci ilin birinci rübü Bərdə üçün uğurlu olmuş, rayonun tarixində əlamətdar hadisələr baş vermişdir. Rayon rəhbəri bildirdi ki, martın 25-də Azərbaycan Respublikasının Prezidenti rayona səfər etmiş, "Bərdə" türbəsinin bərpadan və Torpaqqala tarixi abidəsinin təmirdən, 17 kəndi birləşdirən 25,5 km uzunluqda Yeni Daşkənd-Umudalılar kəndlərarası yolun yenidən qurulmadan sonra açılışında, respublikamızda ilk pambıq əkinində iştirak etmiş, əmək adamları ilə görüşmüş, həmin günü rayonda qalmış, mart ayının 26-da "Pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi"ni keçirmiş, pambıqçılığın inkişafı ilə əlaqədar tapşırıqlarını vermişdir. Cənab Prezident rayona səfərdən dərhal sonra Muğanlı-Körpüsındıran kəndlərarası yolun tikintisi üçün 7 milyon manat, Bərdə şəhərinin adablaşdırılması, küçələrin tikilməsi üçün isə 3 milyon manat vəsait ayrılması barədə sərəncamlar imzalamışdır.

Birinci rüb ərzində 83,2 milyon manatlıq ümumi məhsul, o cümlədən 4,1 milyon manatlıq sənaye, 29,7 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 10,4 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, 1,7 milyon manatlıq nəqliyyat xidməti, 0,3 milyon manatlıq informasiya və rabitə, 37,0 milyon manatlıq ticarət xidmətləri göstərilmişdir. Rüb ərzində sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 2,1 faiz artmışdır.

Ötən rübdə rayonda tikinti-quruculuq, abadlıq işləri davam etmişdir. Qaratəpə və Hacılı kəndlərinin hər birində 80 şagird yerlik modul tipli məktəb tikilmiş, 1150 şagird yerlik şəhər 6 saylı tam orta məktəbinin əsaslı təmiri, Güloğlular kənd tam orta məktəbinin tikintisi davam etdirilmişdir. "Bərdə" türbəsi və Torpaqqala tarixi abidəsi bərpa edilmişdir. 13 mindən çox əhalinin yaşadığı 11 kəndi birləşdirən 17,5 km uzunluqda Muğanlı-Körpüsındıran kəndlərarası yolun yenidən qurulmasına başlanmış, indiyədək yolun yarısından çoxu tikilmişdir. Yeni Daşkənd kəndinin baş yolunun 1,2 km-i asfalt-betonla tikilmiş, yolun kənarları abadlaşdırılmışdır. Rayon mərkəzində Heydər Əliyev prospektində, 20 küçədə, kommunal yaşayış binalarının ətrafında abadlıq işləri aparılmışdır. Nifçi, Məşədiibişli, Kafarlı və Hacıbəyli kəndlərin 1500 nəfər əhalisinin içməli su ilə təminatı üçün kəndlərdə sutəmizləyici qurğular quraşdırılmışdır. Elektrik təsərrüfatında 168 ədəd yeni sayğac quraşdırılmış, 30,8 km SİP kabel çəkilmişdir. 71,6 km müxtəlif diametrli qaz xətləri çəkilərək Lənbəran kəndində 929 ailəyə təbii qaz verilmişdir.

Rüb ərzində 2017-ci ilin payızında əkilmiş 13153 hektar taxıl, o cümlədən 10614 hektar buğda, 2539 hektar arpa sahələrinə aqrotexniki qaydada qulluq edilmiş, tarlalarda bol məhsul yetişdirilir. İndiyədək 1835 hektar pambıq əkilmiş, yazlıq əkinlər sürətlə aparılır. Bu dövrdə 1310 baş iribuynuzlu heyvan süni mayalandırılmış, süni mayalandırılmış heyvanlardan 1053 baş sağlam bala alınmışdır. Rüb ərzində rayondan Bakı şəhərinə təşkil olunan yarmarkalara 200 tondan çox müxtəlif kənd təsərrüfatı məhsulları göndərilmişdir.

Rüb ərzində istehlak edilmiş elektrik enerjisinin dəyəri 89,7 faiz ödənilmişdir. Hazırda rayonun 110 yaşayış məntəqəsindən 106-sı və ya 96,4 faizi, abonentlərin 99 faizindən çoxu təbii qazla təmin edilmişdir.

Fənn olimpiadalarının rayon mərhələsində 9 fənn üzrə iştirak etmiş IX-XI sinif şagirdləri arasından 73 nəfər şagird zona mərhələsinə vəsiqə qazanmışdır ki, bu da ötən ilə nisbətdə 21 nəfər çoxdur.

Ölkə Prezidentinin göstərişinə əsasən rayonda tibbi müayinələr davam etdirilir. Həyata keçirilmiş kompleks tədbirlər nəticəsində hesabat dövründə rayonda ciddi yoluxucu xəstəliklərin yayılmasına yol verilməmişdir.

Tədbirin sonunda icra başçısı "Pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi"ndə cənab Prezidentin verdiyi tapşırıqların Bərdədə yüksək səviyyədə təmin ediləcəyinə əminliyini ifadə etdi.

**V.VƏLİYEV,**
**"Respublika".**

# Bakı Biznes Universitetində beynəlxalq elmi-praktiki konfrans



Bakı Biznes Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirildi. Konfransın məqsədi Azərbaycan Xalq Cümhuriyyəti dövründə iqtisadi münasibətlərin formalaşması və müasir Azərbaycanın sosial-iqtisadi inkişafının nəticələrini təhlil etmək və perspektivdə bu prosesin daha uğurla davam etdirilməsi üçün qarşıya qoyulan vəzifələrin həlli yollarını müəyyənləşdirməkdən ibarətdir. Konfransı Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov giriş sözü ilə açaraq konfransın aktuallığı, məqsədi, mahiyyəti, müzakirə olunacaq məsələlərdən qısa şəkildə bəhs etdi.

Konfransda Azərbaycan Xalq Cümhuriyyəti dövründə coğrafi-iqtisadi inkişaf şəraiti və maddi-mənəvi dəyərlərin strategiyası, iqtisadi münasibətlərin formalaşması, Heydər Əliyev və müasir Azərbaycanın sosial-iqtisadi inkişafı, maliyyə institutlarının formalaşdırılması, Azərbaycanda tədris-təlim texnologiyalarının tətbiqi, xalq təsərrüfatının müxtəlif sahələrində və funksional bölmələrində iqtisadi islahatların aparılması, əhalinin sosial müdafiəsi, optimal vergi siyasəti, xarici iqtisadi əlaqələrin genişləndirilməsi və digər təxirəsalınmaz məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur.

Tədbirdə 6 ölkənin 9 ali təhsil müəssisəsindən 12 alim-tədqiqatçı iştirak etdi. Konfransda AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor Ziyad Səmədzadə, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayev, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi Əli Nuriyev, Bakı Biznes Universitetinin kafedra müdiri, iqtisad elmləri doktoru, professor, İslam İbrahimov, həmçinin Rusiya Federasiyasından, İtaliya, Litva, Serbiya, Ukrayna, Gürcüstan respublikalarından və digər ölkələrdən gələn tanınmış alim-tədqiqatçılar mövzu ətrafında maraqlı məruzələr etdilər. Konfrans alim-tədqiqatçıların çıxışları ilə öz işini davam etdirdi.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# "ASAN xidmət"də "Azərişıq" ASC-nin daha 2 xidməti yaradıldı

"Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN kommunal" vasitəsi ilə abonentlərə göstərdiyi xidmətlərin sırasına daha 2 xidmət əlavə olunub. Bu gündən etibarən ölkədəki bütün "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində "yük hesabatının hazırlanması" (elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri barədə sənəd) və "istehlakçının balansında olan elektrik şəbəkələrinə, onların avadanlıqlarına texniki xidmətin göstərilməsi" adlı 2 yeni xidmət fəaliyyətə başlayıb.

Qeyd edək ki, "yük hesabatının hazırlanması" (elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri barədə sənəd) üçün ərizə-blank və müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur. Bu xidmət sifarişçinin tələbinə uyğun olaraq dərhal və ya 2 gün ərzində həyata keçirilir.

"İstehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi" üçün də ərizə-blank və müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur. Xidmətin müddəti isə işin həcmindən asılı olaraq müqavilə əsasında müəyyən edilir. Beləliklə, "Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN Kommunal" vasitəsi ilə göstərdiyi 11 xidmət, bu gündən etibarən 13 xidmət olub.

Bundan başqa, Nazirlər Kabineti "Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqı məbləği"nin təsdiq edilməsi barədə yeni qərar verib. Bununla da sahibkarların tələb olunan gücü 150 kVt-a qədər mövcud 0,4 kV-luq şəbəkədən tikinti obyektlərinin enerji təchizatı şəbə-



kəsinə qoşulmasına görə vahid tarif təsdiq edilib. Bu isə o deməkdir ki, "Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN kommunal" vasitəsi ilə bu günə qədər xidmət göstərdiyi "qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması" xidmətində yeniliklər edilərək vahid tarif tətbiq olunub. Bu isə sözsüz ki, sahibkarların işini daha da asanlaşdırıb.

**Qədir ASLAN,**
**"Respublika".**

# UNEC-də inklüziv təhsil mühiti yaradılıb

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, dünən Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əlil Təşkilatları İttifaqı və UNEC-in birgə təşkilatçılığı ilə əlilliyi olan gənclər üçün əmək yarmarkası keçirilib.**

**Gənclər və idman nazirinin müavini İntiqam Babayev** ölkədə sosial sahənin inkişafı ilə bağlı siyasətin əsas istiqamətlərindən birinin əlil gənclərin bütün sahələrdə fəaliyyətinin təmin edilməsi və onlardan bərabərhüquqlu istifadəyə imkan verən inklüziv mühitin yaradılması olduğunu bildirib. Bu sahədə konkret proqramlar icra olunur, - deyən nazir müavini dövlət başçısının təsdiqlədiyi "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" və "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" dövlət proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün maneəsiz mühit yaratmağa və onların məşğulluq imkanlarının genişləndirilməsinə xidmət etdiyini diqqətə çatdırıb. İ.Babayev əlilliyi olan şəxslər üçün ilk dəfə belə bir tədbirin təşkil olunduğunu bildirərək, yarmarkada 47 özəl şirkətin 160-dan artıq real vakansiya təqdim etdiyini qeyd edib. Eyni zamanda, əmək yarmarkasında gələcəkdə yaranacaq iş yerləri üçün məlumat bazası da toplandığını vurğulayıb.



**UNEC-in rektoru, professor Ədalət Muradov** inklüziv təhsilin Azərbaycan təhsilinin prioritet istiqamətlərindən olduğunu və fiziki məhdudiyyətli insanların daima dövlətin qayğı və diqqəti ilə əhatə edildiyini bildirib. Rektor fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyası üçün UNEC-də inklüziv təhsil mühitinin yaradıldığına diqqət çəkərək, bu mühitin təhsilin hamı üçün əlçatan olmasını təmin etməklə yanaşı, sosial bərabərliyin qorunmasına, fiziki məhdudiyyətli gənclərin öz potensiallarını nümayiş etdirə bilməsinə və təhsil ehtiyaclarının ödənilməsinə şərait yaratdığını qeyd edib.



Vergilər Nazirliyi, Mərkəzi Bank, Dövlət İmtahan Mərkəzi, Asan Kadr, Bank of Baku, ATA Holding, Coca-Cola, Nobel Oil, Azercell, Nar Mobile, KPMG beynəlxalq şirkəti, Kapital Bank, Turan Bank, Express Bank, YapıKredi Bank, Veysəloğlu Şirkətlər Qrupu, Gilan Holding və s. daxil olmaqla 60-a yaxın dövlət qurumu, yerli və xarici şirkətin qatıldığı əmək yarmarkasında 1800 gənc iştirak edib.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Beynəlxalq təşkilatlarla əməkdaşlıq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların nümayəndələri ilə görüş keçirib. Nazirlik və BMT İnkişaf Proqramının birgə təşkil etdiyi görüşdə ümumilikdə 30-a yaxın beynəlxalq təşkilatın nümayəndələri iştirak edib.**

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin islahatlar proqramının əsas hədəflərindən biri də sosial-iqtisadi idarəetmə və əhaliyə xidmət sistemlərində mütərəqqi beynəlxalq yanaşma və təşəbbüslərin, qabaqcıl dünya təcrübəsindən irəli gələn ən müasir texnologiyaların, innovativ və effektiv iş mexanizmlərinin geniş tətbiqinin təmin edilməsidir. Əmək, məşğulluq, əmək bazarının tənzimlənməsi, əhali sakinliyi və demoqrafiya, sosial müdafiə və digər aidiyyəti sahələr üzrə mötəbər beynəlxalq təşkilatlarla əməkdaşlıq daim diqqətdə saxlanmalıdır. Bu əməkdaşlığa strateji planlaşdırma yanaşması tətbiq olunmalı və uzunmüddətli prioritetlər müəyyən edilməlidir. Bu prioritetlər əsasında icra olunan layihələr, əmək və sosial müdafiə sahələrində aparılan islahatlar prosesinə fəal dəstək rolunu oynamalı, aktual iş sektorlarında konkret səmərəli nəticələrə nail olunmasına öz töhfələrini verməlidir.

Nazir bildirib ki, bu gün gənclərin, fiziki imkanları məhdud şəxslərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi və inklüziv əmək bazarının inkişafı, məşğulluq xidmətlərinin, habelə vakansiyalar bazasının elektron texnologiyalar üzərində qurulması, qeyri-rəsmi məşğulluqla mübarizənin effektli təşkili, əmək müfəttişliyinin potensialının və fəaliyyətində səmərəliliyin artırılması aktual məsələlərdəndir. Həmçinin qarşıda sosial yardım və özünüməşğulluq proqramının icra mexanizminin təkmilləşdirilməsi, sosial xidmətlər sisteminin müasir dünya təcrübəsindəki sosial reabilitasiya metodları əsasında qurulması, "sosial iş" modelinin, müvafiq sahələrdə strateji araşdırmaların aparılmasında beynəlxalq təcrübədə olan modellərin tətbiqi və s. kimi məsələlər dayanır.

S.Babayev beynəlxalq təşkilatlarla əməkdaşlığın gələcək istiqamətləri müəyyən olunarkən və birgə fəaliyyət üçün layihələr hazırlanarkən qeyd olunan məsələlərə xüsusi önəm verilməsinin vacib olduğunu vurğulayıb.

Beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanda əmək, məşğulluq, sosial müdafiə sahələrində qabaqcıl dünya təcrübəsinə uyğun şəkildə aparılan islahatlara, əhali sakinliyi və demoqrafiya siyasətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərə dəstək vermək əzmində olduqlarını bildiriblər.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Erməni casuslarının Şamaxıdakı qədim elm mərkəzində təxribatı

Araşdırma materiallarına görə, Sankt-Peterburqdakı məşhur "Astaxov qardaşları"nın yaşadıqları binada nəvə İqor Alekseyeviç Astaxov özünün "Məxfi kitabxana"sını yaradanda onun cəmi 18 yaşı vardı. Rus alimi və səyyahı İ.A.Astaxov dünyanın nadir elm mərkəzləri, mədrəsələr, akademiyalar, fitri istedad sahibləri haqqında məlumatlar, ensiklopediyalar toplayan istedadlı sahibi olub. Onun "Akademiyalarla" bağlı dəftəri Sankt-Peterburqun Məxfi Arxiv-Kitabxanasında saxlanılır. İlk məxfi sənədi də tacir babasından qalan və üstündə on yeddi imza olan, Şamaxının ticarət meydanından alınan qədim dəftər idi. Uzunluğu 20 sm, eni 10 sm olan bu qədim əl yazısında çoxlu qeydlər olmaqla yanaşı, əl ilə xırda şəkillər də çəkilmişdi. Yüz iyirmi bir səhifəlik bu dəftər rus hökmdarı I Aleksandrın (1801-1895) imzaladığı sərəncamla açılırdı. Sərəncamda yazılırdı ki, ölkənin Məxfi İdarəsinin rəisi Şeqlov Nikolay Aleksandroviçdir və o, xüsusən Azərbaycanda fəaliyyət göstərən erməni əsilli "Rusiyanın dostları" ilə körpüləri bərpa etməyi zəruri və vacib sayır.

İ.A.Astaxovun məxfi kitabxanasında saxlanılan bu dəftərdən məlum olur ki, hələ I Aleksandrın qabaq da, rus hökmdarı I Pavelin də Şamaxıdakı XI əsrdə qurulan və sonra ermənilər və ruslar tərəfindən dağıdılan, yerlə-yeksan olunan Şirvan Elmlər Akademiyası ilə bağlı xüsusi sərəncamları olub. Bundan sonra ermənilər Şamaxıda, eləcə də Şirvanın ayrı-ayrı bölgələrində, ərazinin elm adamlarına qarşı amansız bir hücuma keçirlər. Ordudan tərxis olunmuş ermənilər Şamaxıya göndərilirdi. Əsasən zəhər alış-verişi ilə məşğul olan ermənilər çar Rusiyanın məxfi idarələrindən aldıqları tapşırıqları səxavətlə icra edirdilər. İ.Astaxovun məxfi kitabxanasında saxlanılan dəftərdə yazılır ki, Azərbaycanın coğrafiyaşünas alimi Zeynalabdin Şirvani "Kupes" ləqəbli İohan Narınyan adlı bir zəhər alverçisi necə zəhərləyib, öldürdü və əvəzində rus hökmdarı tərəfindən hansı mükafatı aldı. (Bax: Astaxov İ.A. "Akademiyalar Dəftəri" III hissə. s. 15). Erməni İohan Narınyanın Şamaxıda xarici turistlərə zəhər satan kiçik bir dükanı var idi və bu dükanı I yerli xəfiyyənin nəzarətində idi. Tarixə görə, şamaxılı Zeynalabdin Şirvani dövrünün çox məşhur adamı idi. Ömrünün çox ilini səyahətlərdə keçirən, Azərbaycan coğrafiyaşünaslığı üçün zəngin əsərlərin müəllifi bu alim xəyanətin qurbanı olur, erməni zəhərinin zavalına gəlir. Onun "Səyahət bağçaları", "Səyahət bostanı", "Mərifətlətin kəşfi"... əsərləri dünya alimlərinin diqqətində idi. Z.Şirvani dünya alimlərinə gəzib-gördüyü, Hindistanın, ərəb ölkələrinin, Nil çayının, Hind və Atlantik okeanlarının sirlərindən bəhs edən xeyli yazılı məlumat qoymuşdu. Şamaxıya Novqoroddan alış-verişə gələn rus taciri Konstantin Sidorov qeyd edir ki, Şirvani onun gözləri qarşısında zəhərləndi... və az keçmədi qan qusaraq canını tapşırdı. (Bax: Tacir K.Simonovun dəftərə tikilmiş rəsmi əl yazısı. Eyni mənbə. S. 19). Məlumata görə, 1160-cı ildə Şamaxıda rus məxfi idarəsi üçün kəşfiyyat məlumatları toplayan Qara Pyotr (Pyotr Samoylov) hökmdar dəftərxanasına yazdığı teleqramda göstərirdi: "...Ermənilər səxavətlərinə görə fərqlənirlər. Bu gün qoca Şirvani Kupes tərəfindən zəhərləndi. Qərarımız var ki, iki gündən sonra onun qardaşı Məhəmmədəli Şirvanini də eyni yolla aradan götürək. O da məşhur filosof və tarixçidir, qardaşı kimi məşhur adamdır. O, rusları ermənilərı sevmir..."

Sankt-Peterburqdakı Məxfi Kitabxanada saxlanılan "Astaxov dəftəri"ndə maraqlı məlumatlardan biri də budur ki, ermənilər elə keçirdikləri ən nadir sənət əsərlərinin bir qismini ruslardan gizlin Ermənistanın "Matenadaran" adlanan Əlyazmalar İnstitutuna göndərirdilər. Məsələn, Şamaxıda çox məşhur olan tarixçi-filosof və tədqiqatçı, 16 il Şirazda (İran) erməni girovunda qalan Əbdül Rəzzaq Bəyi Şamaxıda yas məclisində zəhərlədikdən sonra, onun evinə basqın etmiş, ən məşhur "Həqiqətlər həqiqəti" əsərini ələ keçirərək Ermənistana ötürmüşlər. Həmin qiymətli əsər ermənilərin "Matenadaran"ında saxlanılır.

Başqa bir məlumatda isə bildirilir ki, 1823-cü ildə I Aleksandrın göstərişilə erməni "Kupes" - N.Narınyan Moskva çayının sahilindəki Rus kilsəsinə dəvət alır. Maraqlısı bu idi ki, I Aleksandr erməni N.Narınyanı kilsədə gizli şəkildə qəbul edir və ona üstündə brilyantı olan Qızıl Xaç ordenini verir. Əlavə olaraq tapşırır ki, o Şamaxıya qayıtdıqdan sonra Məxfi İdarənin zabiti Pyotr Alekseyeviç Samoylovu aradan götürsün. Hadisədən xəbər tutan P.A.Samoylov məxfi sənədləri götürərək, Şamaxıdan çıxır və Gəncəyə gedir. (Bax: P.A.Samoylov. "126 gün Şirvanda..." Sankt-Peterburq. 1898) Məlumata görə, Şamaxıda I Nikolayın hakimiyyəti dövründə (1825-1855) qırx səkkiz nəfər Şirvani təxəllüslü elm və sənət adamı, yazıçı, şair, tarixçi-filosof... ermənilər tərəfindən zəhərlənərək öldürülüb.

Məlumdur ki, Rusiya tarixində və rus dövlətçilik ənənələrinin formalaşmasında Rus Knyazı Yaroslav Mudrı böyük əmək sərf edib. (1018-1054). O ilk dəfə rus torpağına "qanunları gətirib". Və yazıçı-filosof mitropolit İllarioni isə bu qanunlara nəzarətçi təyin edib. Rus torpağında primitiv də olsa, kəşfiyyatını yaradıb. O, özünün "Yaroslavın işləməyən qanunları" kitabında göstərir: "...Mən öz Məxfi İdarəmi İslamın Böyük Peyğəmbəri Məhəmmədin (s.ə.) sözlərinə uyğun qurdum..." Elmi, mərifəti, ağıl və düşüncəni seçib, qiymətləndirməyi bacaran rus hökmdarı dünyanın ticarət yollarını və mərkəzlərini araşdıran, xüsusi xəritə də hazırlatdırır, Yaroslav Mudrının hansı mühüm xüsusi biliyə malik olub. Nəticədə Metropoit İllarionu 1052-ci ildə Şamaxıya göndərir. Daha ətraflı məlumat toplamaq, öyrənmək onun əsas dövlətçilik prinsiplərindən olub. Məlumata görə, Mitropolit İllarion 1052-ci il oktyabr ayının 26-da Şamaxıda filosof, dövrünün zəkalı və iti ağıla malik olan Muqlis Şirvani adlı bir şəxslə görüşür. Amma nədənsə görüş ərzində erməni araşdırıcısı Atayan adlı birisinin evində təşkil olunur. Ola bilsin bu addım rus hökmdarının məqsədli addımlarından biri olub. Çünki rus knyazı ermənilərlə çox asta və gizlin bir şəxsiyyətə malik idi.

Sankt-Peterburqdakı məxfi arxivin sənədlərinə görə, həmin vaxt artıq Şamaxıda Şirvan Elmlər Akademiyası adlı bir qurum yaradılmaqda idi. Qurumun xəzinədarlığı və möhürlərin hazırlanması isə erməni taciri Mari Osipyan həvalə edilmişdi. Bunun da səbəbi var idi. Erməni taciri Akademiyanın yaranmasında və inkişafı üçün öz sərmayəsinin bir hissəsini könüllü olaraq ayırmışdı. Sonradan məlum olur ki, erməni taciri Mari Osipyanın ayırdığı pul onun yox, əslində Ərdəbili memar Hacı Müslüm Tağızadəyə məxsus idi. (Bax: "Astaxovun Dəftərinə tikilmiş sənəd") Tarixçi S.S.Mamontov yazır ki, erməni taciri Mari Osipyanı Mitropolit İllarion ifşa edir. Tarixçi S.Mamontov qeyd edir: "Bu adam (yəni erməni taciri Mari Osipyan) neçə illərdi ilan zəhəri satmaqla məşğul olub. Ərdəbildə memar Hacı Müslüm Tağızadə ilə qohumluq əlaqəsi qurub, qızı Gülcamalı onun oğluna verib. Memar Hacı Müslüm Tağızadə doqquz il Rusiyanın Kiyev, Novqorod, Moskva şəhərlərindəki hökmdar saraylarının tikintisində imzasını qoyub. Onun Kiyevdə tikdiyi "Qədimdən Qədim" adlı tarixi abidəsi həmişə diqqətdə olub. Bildiyimə görə, 1094-cü ildə Şamaxıda Şirvan Elmlər Akademiyası qurulur, yəni arada gəzən söz-söhbətə son qoyularaq rəsmi açılışı baş tutur... Akademiyanın açılışında Ərdəbilli memar Hacı Müslüm Tağızadə iştirak edir. Qeydlərə görə o, Şirvan Elmlər Akademiyasının yaradıcısı filosof Kafiəddin Şirvaninin əziz dostu kimi onun yanında idi...".

Lakin Şirvanda açılan Akademiyanın fəaliyyəti erməniləri və eləcə də rusları o qədər sevindirmirdi. Bu zaman Şirvan Elmlər Akademiyasının 11 nəfər üzvü var idi. Başqa bir rus alimi A.D.Medlınnıy "Üçbucaq" tədqiqat əsərində yazır: "...Şamaxı Azərbaycanın ən qədim yurd yerlərindən olub. O, həm də çox güclü ticarət meydanı kimi tarixdə qalıb. Şamaxı həm də elm və mədəniyyət mərkəzidir. On yeddi dəfə olmuşam o yerdə. Amma mənim ora getməyimə, səfər etməmə səbəb, atamın-filosof David Aydamiroviçin həmin yerlərlə, xüsusən Şirvan Elmlər Akademiyası ilə bağlı olub. Atam öz nəslinə, yəni mənim çox qədim babalarıma məxsus Şamaxı ilə bağlı əlyazısını axtarırdı. Həmin əl yazmalar tarixi sənəd kimi atamın dediyinə görə, neçə yüz il bundan öncə Akademiyaya verilmişdi...". Görünür, Şirvan Elmlər Akademiyası, həmçinin dünyada tanınmış elm adamlarının üzünə qapılarını açdıqdan sonra, burada mühazirələr oxunmuş, əlyazıları yığılaraq saxlanılmışdır... Lakin mən Akademiyanı tədqiq edib, öyrənərək, daha ciddi məlumatlar topladım. Öyrəndim ki, Akademiya yaradılarkən buranı ruslar ciddi nəzarətə götürüblərmiş. Bundan başqa, Şirvanda yaradılan Elmlər Akademiyası ilə bağlı Vatikan ciddi araşdırmalarını aparıb, ora öz emissarlarını göndərib. Çünki Vatikan müsəlmanların belə dirçəlişini, oyanmasını, heç cür qəbul etmirdi. Həmin erməniləri qarşılayıb, yola salırdılar...".

Məxfi kitabxanada saxlanılan "Astaxov dəftəri"nə görə, Şamaxıya təşrif gətirən Vatikan emissarlarından iki nəfəri Simani və Edvard Şirvan Elmlər Akademiyasında işlə təmin olunurlar. (?) Şirvan Elmlər Akademiyası getdikcə Şirvanşahlar dövlətini dünyaya elmin, sənətin, ləyaqətin beşiyi kimi tanıdırdı. Onun rəhbəri seçilmiş filosof Kafiəddin Şirvani haqqında isə çox rəvayətlər gəzib, dolanırdı. Mənbələrə görə, Şirvan Elmlər Akademiyasının qurucusu olan filosof Kafiəddin Şirvani böyük Azərbaycan şairi Əfzələddin Xaqaninin əmisi olub və şairin tərbiyəsində, elm, bilik almasında xüsusi səy göstərib. "Dövrünün Aristoteli" kimi ad qazanmış Kafiəddin Şirvani Vatikana dəvət alır. Tədqiqatçı-alim Eyvalı Qara oğlu Mehrəliyev onun haqqında yazır: "...Kafiəddin Şirvani dövrünün inkişafına təkan vermək məqsədilə, dövründəki elmi düşüncələri vətəndaşlıq süzgəcindən keçirərək, Şirvanın şöhrəti naminə, hətta özünün şəxsi həyatından keçməyə üstünlük verirdi, vətənin intihabı xatirinə mərdanəvi sərtlik, hünərpərvər görkəm, ədalətlilik, sözündə bütövlük, həqiqətə yetərlik, mənəviyyata ucalıq, müvəffəqiyyətə məğrurluqla çatmaq məqsədi onun amalı olmuşdur".

Təhlillərimizə və əldə olunmuş bəzi materiallara görə, Şirvan Elmlər Akademiyasının Vatikan Akademiyasına oxşarlığı olub. Başqa bir məlumatda isə bildirilir ki, yolayrıcında salınmış Şirvan Elmlər Akademiyasının "Peyğəmbər Kitabxanası" dörd dəfə bilərəkdən yandırılıb. Nəticədə Kafiyəddinin Zeynəb Gül adlı ömür-gün yoldaşı və ondan əkiz doğulmuş oğlanlarından biri Məhəmməd yanaraq həlak olublar. Qeyd edək ki, Kafiyəddin Şirvani az müddət ərzində Akademiyada 19 şöbə yaradır. Orta Asiyanın, Şərq ölkələrinin ayrı-ayrı regionlarından, eləcə də bəzi Avropa ölkələrindən təhsil üçün, dünyanı dərk etmək üçün bura gəlirlər.

Lakin Kafiəddin Şirvani ilə bağlı mükəmməl tədqiqat bazasının və materialların olmaması səbəbindən çox mətləblər qaranlıq qalır. Biz əsasən bütün tədqiqat faktorlarından fərqli olaraq Şirvan Elmlər Akademiyasına, onun Şura üzvlərinə, alim və filosoflarımıza qarşı erməni faktorunu araşdırmağa cəhd etmişik. Çünki məlumata görə, Sankt-Peterburqda-Ermənistanda saxlanılan qədim Azərbaycanla bağlı sənədlər toplusunda Şirvan Elmlər Akademiyası ilə əlaqəli sənədlər, yazışmalar var... Məncə, Şirvan Elmlər Akademiyası haqqında müfəssəl də olmasa, əsas məlumatları və tarixi sənədləri Qafar Kəndli - Herisçinin, eləcə də, E.Mehrəliyevin tədqiqatlarından oxumaq mümkündür.

Araşdırmalara görə, Kafiəddin Şirvani kitabxananın şamdanlarını söndürərkən, özü də kitabları ilə birgə yanır. Bir müddət dili tutulur və gözlərindən olur. "Astaxov dəftəri"nə istinad etsək, Kafiəddin Şirvaninin faktiki olaraq 1132-ci ildə kitablarını, əl yazmalarını itirdiyi üçün bağrı çartlayır, ürəyi ağrılara tab gətirə bilmir. Hətta onun ölüm xəbəri dünyanın əksər ölkələrində təəssüf hissi ilə qarşılanır. Hətta rus hökmdarı knyaz VI Lyudovikin başsağlığını erməni Sitar Melikbekyan məktubda regionun tanınmış ailələrindən olan Rüstəmbəyovlara verir.

Filosof K.Şirvaninin gözlənilməz ölümü Şirvan ziyalıları tərəfindən olduqca kədərli və ağrılı bir tərzdə qarşılanır. Heç kəs onun ölümünə inanmaq istəmir. Rus knyazı VI Lyudovik hətta dəfn mərasimində iştirak etmək üçün, rus kilsəsinin başçısının köməkçisi Qriqori Melanşiki Şamaxıya göndərir. Həmin vaxt Qriqori Melanşiklə görüşən böyük mütəfəkkir Xaqani Şirvani deyir: "...O, mənim əmim idi. Lakin mən onu Şirvan elinin dahisi kimi qəbul etmişəm...". "...Astaxov Dəftəri"ndə qeyd olunur ki, Kəfiəddin Şirvaninin ölümündən sonra, regiondakı ermənilər Akademiyaya qarşı daha da aqressiv oldular, tanınmış alimlərə qarşı əsl mənada hücuma keçdilər. Fakta görə, 1132-ci ilin martın ortalarında biri-birinin ardınca nüfuz sahibi olan Şamaxı alimi Əyyub Səltənət Şirvanini və filosof Ağa Bağır Ağa Seyidzadəni zəhərləyərək məhv etdilər. Bununla bağlı "Astaxov Dəftəri"ndə oxuyuruq: "...Ölən iki nəhəng filosof Şirvan Elmlər Akademiyasının nurlu adamları idi. Hamı Şamaxıda onları görəndə baş əyir, təzim edir, sonra ötüb keçirdilər. Filosof Əyyub Səltənət Şirvaninin on ikinci İmamla bağlı tədqiqat əsərini Vatikan emissarı Martin İohann erməni taciri Aram Babayandan kifayət qədər pul verərək ala bilir.

Şirvan Elmlər Akademiyasında "Bizim mənşəyimiz" şöbəsi isə daha çətin və ciddi işlərlə məşğul idi. Erməni alimlər cəhd edirdilər ki, həmin şöbədə qulluq göstərsinlər. Hətta bu istiqamətdə 1159-cu ilin ortalarında Şirvan şahı III Mənuçöhrdən də yazılı, möhürlü fərman almışdılar. Şirvan Elmlər Akademiyasına atasından sonra rəhbərlik edən filosof Vəhidəddin Kafiəddin oğlu Şirvani III Manuçöhrin ermənilərlə bağlı Vatikandan göndərilən və yaxud edilən xahişini icra etmir. Bütün bunlar narazılıq yaratdı. Nəticədə III Mənuçöhr Akademiyada çalışan üç filosofu zindana salır, Vəhidəddin Şirvani isə Bərdəyə sürgün olunur. Yaranmış fasilədən istifadə edən ermənilər zəhər "çeşidləyən" laboratoriyanı dağıdaraq, onu başqa bir yerə köçürürlər, Akademiyaya məxsus altı yüz yetmiş səhifəlik məlumat kitabları, əl yazıları, Akademiyaya məxsus hesab dəftərləri, onun qurduğu əlaqələrə dair sorğu vərəqləri oğurlanır. Oğurlanmış sənədlər içərisində qiymətli sənədlərdən biri Vəhidəddin Şirvaninin yaratdığı "Yeni il təqvimi" olur. Tədqiqatçı-alim Q.Kəndli-Herisçi "Xaqani Şirvani" əsərində yazır: "Xaqani Gəncədə ikən Şirvan şahı III Mənuçöhrdən təcili məktub alır ki, dövlət işçilərinin xatirinə yubanmadan Şamaxıya qayıtsın... Həmin məktubda yubanmadan yolüstü sürgündə olan filosof Vəhidəddinin də Şamaxıya qaytarılması əmrini verir...".

"Astaxov Dəftəri"ndə toxunulan məsələlərdən biri bu idi ki, filosof Vəhidəddin Şirvaninin yaratdığı "Yeni İl Təqvimi"ni də ermənilər oğurlayaraq, Vatikan emissarı Pabloya satdılar. Maraqlı cəhət bu idi ki, III Mənuçöhr də filosofdan həmin təqvimi istəyib... Lakin filosof Vəhidəddin Şirvani III Mənuçöhrə yazdığı məktubda bildirir: "...Mənim başıma gələn qəzavü-qədəri anlamadım. Ermənilər şahın mənə olan münasibətindən istifadə edərək, Akademiyanı viran qoydular. Əl yazılarını, kitabları, laboratoriya dəzgahlarını, Yeni İl təqvimimi oğurladılar".

Böyük Azərbaycan şairi Xaqani Şirvani öz əmisi oğlu Vəhiəddin haqqında Şirvan Şahı III Mənuçöhrə deyir: "İmkan verin sözünü desin. Ondan ikiüzlü, yaltaq olmaz. Bu mümkün deyil. Ondan abırsız və həyasız olmaz. Bu mümkün deyil. O, ləyaqətini qoruyan, ədalətli, istedadlı... Allahı sevəndi. O, nəcib əməllər qəsridi. Şahım, istedadlı adamlar paxıl və xain olmur. İstedadsız filosoflar, qələm sahiblərinə (Allah kəssin belə qələmi) söz aparıb, söz gətirənlərə qəlbləri, ürəkləri qıranlara, qeyrətini və şərəfini əldən verənlərə lənət olsun. Lənət olsun. Lənət olsun...". Məlumata görə, professor Astaxov nəslinin sonuncularından olan Qleb Nikolayeviç Astaxov şair Xaqaninin bu məktubunu çıxararaq, rus dilinə çevirmiş və iş otağında başının üstündən asmışdı. Həmçinin, Q.N.Astaxov III Mənuçöhrə sanki üzünü tutub, onu ittiham edirdi: "Onu - o gözəl çırağı (Vəhidəddin Şirvani nəzərdə tutulur) Sən keçirtdin. Sən onun ürəyilə oynadın, hökmdar. Sənin məmləkətin bir daha elə vücud yetirməz..." Daha sonra professor Q.N.Astaxov dəftərində yazır ki, araşdırma vaxtı mənim əlimə Şirvan Elmlər Akademiyasının kitabxanasından erməni alimi Birac Atçıyanın oğurlayaraq apardığı kitabların sliyahısı keçdi. Ermənilər kitabxanadan dəyəri ölçü və miqyasa gəlməz "Fəlsəfəni öyrənməkdən qabaq nəyin müqəddimə verilməsi haqqında", "Əql sözünün mənasına dair", "Platon və Aristotel", "Metafizika", "Ədalət kitabı", "Qanun", "Şəfa" "Xəstəliklərə qarşı", "Ürək xəstəlikləri", "Şirvanın tarixinə dair yüz bir əl yazısı", "On ikinci İmamın zühur etməsi...", "Əli", "Fatimə", "Hüseyn", "Həsən", "Abbas", "Məhəmməd" tədqiqat dərslikləri, "Bizim mənşəyimizdəki bənzərsizlik", "Hər salamda yüz min hikmət var..." əsərləri apara bildilər.

Vatikan emissarları isə Şirvan Elmlər Akademiyasından .Məhəmməd Peyğəmbərin (s.ə.s.) ərəb tacirindən alınmış qiymətli əbasını, dəridən xüsusi düzəldilmiş çarıqların qalıqlarını, min iki yüz səhifəlik əl yazısını, Azərbaycanın qədim xəritələrini, coğrafi dərsliklərini oğurlaya bildilər...

Araşdırma materiallarına görə, Şirvan Elmlər Akademiyasının başçılarından olan filosof, Vəhidəddin Şirvani erməni alimi "Anuşun oğlu" ləqəbini qazanmış David Baqdasaryan tərəfindən ilan zəhərilə zəhərlənərək öldürüldü... Tarixin böyük alimi Vəhidəddin Şirvani ilk təbiətşünas alim idi ki, Şirvan ərazisindəki çayları, su hövzələrini arayıb, axtarmışdı. Şirvan şoranlıq, susuz səhranı xatırladırdı. III Mənuçöhr onun təklifilə Kür çayı üzərində bəndlər saldırmışdı. Sonuncu bənd "On gözlü bənd" adlanırdı. Şirvan torpağı bundan sonra libasını dəyişdi... Gəlib-gedənlər çoxaldı. Amma bu böyük alimin zəhərlənməsində Şirvan Elmlər Akademiyasına soxulmuş, Şamaxıda erməni soy-kökü istiqamətində araşdırmalar aparan Telaor Faruqyan adlı birisi xüsusi fəallıq göstərmişdi. Erməni T.Faruqyanın cinayətinin üstünü açılmasında və onun tutularaq, insanların gözü qarşısında, Şamaxı meydanında dara çəkilməsində Şirvan Şahı III Mənuçöhrün qadın sərkərdələrindən olan Banu Xatunun misilsiz əməyi oldu. Həmin vaxt Ermiədzin ideoloqlarından olan, katalikos Herses Banu Xatunun Şamaxıda qalan nəslinə qarşı ölüm fitvasına imza atdı. Erməni T.Faruqyanın məktublarını, onun Şirvan Elmlər Akademiyasındakı fəaliyyətini araşdıran, təhlil edən tədqiqatçı alim, M.N.Sarateli göstərir ki, bu adamı bağışlamaq, onu yaddan çıxarmaq, Azərbaycan milləti üçün başıucalıq gətirməz. O, düşməndir. "...Düşməni isə unutmaq yox, onun törətdiyi əməllərin dalınca getmək, onu və onun kimilərini məşhər ayağına çəkmək lazımdır... Onlar Pir Hüseyn Şirvani adlı bir akademiki də zəhərləyib öldürmüşdülər... Çoxlarına qəribə gəlməsin ki, mən "akademik" sözünü işlətdim. Bu, həqiqətən də, belə idi..."

Alim M.N.Sarateli "Şirvan elmi" adlı 180 səhifəlik əsərində, həmçinin göstərir ki, (1955-ci il.) Şirvan Elmlər Akademiyası hələ tam və genişliklə tədqiq olunmayıb, araşdırılmayıb. Bu akademiyanı ermənilər təpədən dırnağadək zəhərləyib, sıradan çıxartdılar. Vatikan emissarları isə çox dəyərli tədqiqat materiallarını oğurlayaraq, apardılar.

"Astaxov Dəftəri"ndə Şirvan Elmlər Akademiyasının "Dil və Ədəbiyyat, sənətə tənqidi yanaşma" şöbəsinin əməkdaşı filosof Pirhüseyn Şirvaninin, "Tibb elmləri şöbə"sinin əməkdaşı, Mahmud Əl-Təbib Şirvaninin, "Astronomiya şöbəsi"nin elmi-tədqiqatçısı, böyük alim Əbdülkərim Dahi Şirvaninin, "Pedaqoji Şöbə"nin rəhbəri Təhaəddin ibn Əhmədin, "Ordu və dövlət quruculuğu" şöbəsinin başçısı olmuş, Əmir Əsədəddin Şirvaninin müxtəlif mərhələlərdə zəhərlənərək, ölmələrilə bağlı məlumatlar var.

Ümumiyyətlə, düşmənlər Azərbaycan xalqının düşünən beyinlərinə qarşı amansız terror aktlarını nə qədər gizlətməyə cəhd etsələr də, fakt, faktlığında qalır. Şirvan Elmlər Akademiyasının ən ciddi və aktiv üzvü Mahmud Əl-Təbib Şirvani olub. Ona "Şərəf-əş Şirvan" deyirdilər. Belə bir titulla həkim, tibb elmlərinin bilicisi olan Mahmud Şirvani 66 yaşında erməni köməkçisi Mirzəbəy Adilyan tərəfindən zəhərlənərək öldürülür. Bu vaxt erməni M.Adilyan onun 28 cilddən ibarət əl yazısını götürərək, qaçır və qaçarkən də tibb şöbəsinə od vurur. "Astaxov Dəftəri"ndə oxuyuruq: "...Şirvan Elmlər Akademiyasının Tibb Şöbəsi başdan-başa yanıb, kül oldu... Ondan bir az keçmiş Mirzəbek Adilyanın Rusiyada, İranda və Türkiyədə tibbə dair kitabları nəşr olundu. Bütün bu kitablar Mahmud Şirvaninin dəstxətti idi. Belə bir oğurluğu və qəddarlığı Tanrı bağışlamadı. O, elə bir dərdə, bəlaya düçar oldu ki... şam kimi əridi. Və günlərin birində, yəni ölüm ayağında qışqırdı: "...Bütün bu kitablar qoca Mahmudundur (yəni Mahmud Şirvaninin)

**Rövşən NOVRUZOĞLU,**
**Beynəlxalq terrora qarşı strateji araşdırmalar mərkəzinin direktoru, politoloq.**

# Müsabiqənin qalibi elan olundu

Bu günlərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin təşkilatçılığı ilə keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş ümumtəhsil və orta ixtisas məktəblərinin şagird və tələbələri arasında gənc ifaçıların III Respulika müsabiqəsi başa çatdı. Qeyd edək ki, bu müsabiqə artıq üçüncü dəfədir keçirilir, həmişə gənc istedadları qiymətləndirən və onlara daim qayğı göstərən ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq təşkil olunur.



Qobu qəsəbə Uşaq İncəsənət məktəbinin tar sinfinin şagirdi Nihat Quliyev final mərhələsində ifa etdiyi "Şur" muğamı ilə onyaşlılar arasında müsabiqənin qalibi adını qazandı.

Nihat Elşən oğlu Quliyev 12 oktyabr 2007-ci idlə Salyan rayonunun Qaraçala kəndində anadan olub. Valideynləri Azərbaycanın dilbər guşələrindən olan Cəbrayıl rayonundan məcburi köçkündür. Nihat Quliyev hazırda Qobu qəsəbə Q.Xalıqov adına 1 nömrəli tam orta məktəbin 5-ci sinfində, Qobu Uşaq İncəsənət məktəbinin 4-cü sinfində (tar sinfində) oxuyur.

Nihat Quliyevlə sevincini paylaşanlar çoxdur. Babası Hüseyn, nənəsi Fatma, Qobu qəsəbə 1 nömrəli tam orta məktəbin kollektivi, dostları, qonşuları sevinir. Nihatın uğuruna çox sevinənlərdən biri də Qobu Uşaq İncəsənət məktəbində onun tar müəllimi İstanbul İsmayıldır.

**Vasif SÜLEYMAN.**

# "Dönüş" sənədli filminin təqdimat mərasimi

**Bu günlərdə paytaxtın "Nizami" kino mərkəzində ehtiyatda olan hərbi həkim, tibb xidməti kapitanı, Qarabağ qazisi İmran Qurbanova həsr olunmuş "Dönüş" sənədli filminin təqdimat mərasimi keçirildi. Tədbirdə ictimaiyyət nümayəndələri, İmran həkimin Kəlbəcər, Ağdərə və Murov istiqamətində gedən ağır döyüşlərdə birgə iştirak etmiş keçmiş döyüş yoldaşları, Mərkəzi Hərbi Hospitalın həkim heyəti, millət vəkilləri, dost və qohumları, həmçinin KİV nümayəndələri iştirak edirdilər.**

Vurğulamaq lazımdır ki, "Dönüş" sənədli filminin ideya müəllifi Rüstəm Dastanoğlu, ssenari müəllifi tanınmış jurnalist, yazıçı Orxan Fikrətoğlu, rejissoru, sənədli filmləri 2 dəfə "Nyuyri" Qran-Pri mükafatına layiq görülmüş Rüfət Əsədov, filmin operatoru Zövqi Quliyev, prodüserləri Zövqi Quliyev və Nail Qurbanovdur.

Tədbiri giriş sözü ilə tanınmış hərbi diktor, məşhur hərbi mahnıların ifaçısı Şəmistan Əlizamanlı açaraq belə bir dəyərli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayacaq "Dönüş" sənədli filminin ərsəyə gəlməsində əməyi, böyük zəhməti olan insanlara razılığını bildirdi. Qürur hissi ilə vurğuladı ki, xalqımız bu gün qəlbi Vətən, Azərbaycan eşqi ilə döyünən, Vətənin dar günündə qəlbinin hökmü ilə silaha sarılaraq Kəlbəcər, Ağdərə uğrunda gedən ölüm-dirim savaşında rəşadət göstərən İmran Qurbanov kimi oğullarla fəxr edir.

İmran həkim aşıqlar yurdu, söz-sənət diyarı olan ulu Göyçə mahalında — Basarkeçərin Nərimanlı kəndində kolxozçu ailəsində dünyaya göz açmış, uşaqlıq illəri, "Göyçə" gölünün nəğməli sahillərində, Kəlbəcərdə, "İstisu"da, "Dəlidağ"da keçmişdir. O, saatlarla el aşıqlarının məclislərindən ayrılmazdı. İmran gənc yaşlarından erməni xəyanətini hiss edir, Göyçədə erməni daşnaklarının törətdiyi vəhşiliklərlə bağlı yaşlı nəslin müşahidələrindən doğan kövrək xatirələrini dinləyirdi.

İmran Qurbanov alimlər kəndi adlandırılan Nərimanlı kəndində orta məktəbi müvəffəq qiymətlərlə bitirdikdən sonra Bakı şəhərinə üz tutmuş və Tibb Universitetinin müalicə profilaktika fakültəsinə daxil olmuşdur.

İmran həkimin mənalı ömür yolundan bəhs edən "Dönüş" sənədli filmi təxminən 2 saata yaxın davam etdi. Etiraf etmək lazımdır ki, filmdə ağır döyüşlərdə hərbi həkim İmran Qurbanov və onun döyüş yoldaşlarının çətin iqlim şəraitində Kəlbəcər, Murov və Ağdərədə yaralıları ölümü pəncəsindən necə xilas etmələri geniş təsvir olunmuşdu. Tamaşaçıların çoxu filmə baxdıqca, qəhərlənir, göz yaşlarını saxlaya bilmirdilər...

Qışın çovğunlu, boranlı çətin anlarında, çətin iqlimdə, çadır şəraitində sinəsi düşmən gülləsinə tuş gəlmiş, al-qan içərisində Ulu Tanrıdan imdad diləyən yaralıları ölüm caynağından xilas etmək üçün hərbi həkim İmran Qurbanov nələr etmirdi, İlahi! Hər bir xəstəyə ürəyini verməyə hazır idi.

Ağır döyüşlərdə atılan mərmilər səmada fırlana-fırlana çadırı sızıb keçirdi. Xəstənin səhhətində yaxşılığa doğru bir şey hiss etdikdə İmran həkim başını yuxarı qaldıraraq Ulu Tanrıya şükür edir, bu zaman qəlbinə rahatlıq gəlirdi. Elə anlar olurdu ki, İmran həkim bəlkə də əməliyyatlardan saatlarla ayrıla bilmir, sudan başqa boğazından heç nə keçmirdi. Öz-özlüyündə düşünürdü:

—Tanrı ermənilərin bəlasını versin, xalqımızı daşnak xəyanətindən qorusun!

İmran həkim dağlıq şəraitində, şəxsi təşəbbüsü ilə təşkil etdiyi çadırda çox çətin vəziyyətdə cərrahiyyə əməliyyatları aparırdı. Demək olar ki, tibbi avadanlıqlar yox dərəcəsində idi.

Ağır döyüşlər getdiyi vaxtda qəlpə yarası ilə al-qan içərisində çapalayan bir nəfər əsgər çox çətinliklə tibbi çadıra gətirilir. O, həyatının son anlarını yaşayırdı. Xəstənin bu halı İmran həkimi dəli etmişdi. O, ani bir sükuta getdikdən sonra, qəti bir qərara gəldi: Onu həyata qaytarmaq üçün yeganə çıxış yolu yaralıya qan köçürməkdir. O, çox qan itirib. İmran həkim xəstəni xilas etmək üçün ilk qanı şəxsən özü verdi. Saatlar ötdü, xəstə gözlərini açdı, dili söz tutmasa da, həkimi qucaqlayıb onu duz kimi yaladı...

Filmdə göstərilir ki, çətin iqlim şəraitində Azərbaycan ordusu hücuma keçərək irəlilədi, Kəlbəcər-Ağdərə istiqamətində 7 böyük kənd düşməndən azad edildi. Elə anlar oldu ki, İmran həkim əlinə silah götürüb odlu döyüş səngərlərinə üz tutdu, neçə-neçə ermənini cəhənnəmə vasil etdi. Yaralı Azərbaycan əsgərlərinin qisasını aldıqca, dərindən nəfəs alır, qürur hissi keçirir, ətrafa göz gəzdirərək yeni "ov" axtarırdı.

Hərbçi həkim İmran Qurbanov söhbət düşərkən keçmiş döyüş yoldaşlarından Aslan Haşımov, Habil Şirinov, mayor Əhliman Əliyev, Teymur Elləzov, Qalib Əmirov, Kamil Əmirov, Zakir Həyatov, Qulam Rüstəmzadə, Kərim Orucov, Lyudmila Txaçenko və başqalarının adlarını dönə-dönə çəkir, onların hər birinin yaralıların yolunda şam kimi əridiyini bildirdi.

Filmdə Kəlbəcər dağlarının uca zirvələri, qıy vuran qartallar, yalçın qayalar, çırpına-çırpına axan dağ çayları təsvir olunur. İmran həkim yüksəklikdən həsrətlə Göyçə gölünə, hər qarışında ayaq izləri qalan Göyçə mahalına baxır, gözləri yaşarır, qəlbinin sarı simi dilə gəlirdi. Murovdan Göyçə aydınca görünürdü, əl uzatsan, çatardı...

"Dönüş" filmində diqqəti ən çox cəlb edən hərbçi həkim İmran Qurbanovun toy şənliyidir. Toy mərasimində atası Hümmət, anası Gülara qollarını qaldırıb quş tək süzür, hərdən telli saz dilə gəlir, Göyçə toyu hamını heyran edirdi...

İmran həkim 1994-cü ilin aprel ayının sonunda Müdafiə Nazirliyinin Baş Qərargah Poliklinikasının rəisi vəzifəsinə təyin olunur. 1997-ci ilin noyabrında isə ehtiyata buraxılır. Həmin vaxtdan indiyədək Respublika Mərkəzi Klinikasının 2-ci qəbul şöbəsinin rəisi vəzifəsində çalışır. Ömrünün 54-cü baharını yaşayan İmran həkim 2 övlad atasıdır. Fərhad və Etibar adlı iki gülüzlü balası var.

Şübhəsiz ki, "Dönüş" sənədli filmi respublika ictimaiyyəti tərəfindən maraqla qarşılanacaqdır.

**Qədir ASLAN,
"Respublika".**

# May ayının ilk hərracı



Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən may ayının ilk hərracı keçirilib. Budəfəki özəlləşmə prosesində də investorların aktivliyi müşahidə edilib. Qeyd edilməlidir ki, dövlət əmlaklarının özəlləşdirilməsi üzrə keçirilən hərraclarda yaradılan imkanlar genişləndirilir. Hərracların tam olaraq elektronlaşdırılması, sifarişlərin elektron qaydada verilməsi, Elektron hərraclar vasitəsilə onlayn əmlakın özəlləşdirilməsi investor marağını daha da artırıb. Hərrac günü prosesi virtual olarq izləmək imkanı isə gələcəkdə hərraca qatılmaqla bağlı investorun optimal qərar qəbul etməsinə şərait yaradır. Hər həftə baş tutan hərraclara paytaxt və regionlar üzrə cəlbedici müəssisələrin çıxarılması da prosesə investor marağını yüksəldir. Özəlləşməyə çıxarılan əmlakların profillərinin müxtəlif iqtisadi sahələrə aid olması investorların seçim imkanını artırmaqla onların istədiyi biznes layihələrinin reallaşmasına şərait yaradir .

Budəfəki hərracda 1 kiçik dövlət müəssisəsi, 9 qeyri-yaşayış sahəsi, 2 yarımçıq tikili, 4 nəqliyyat vasitəsi özəlləşdirilib. Bakı şəhəri üzrə keçirilən hərraclarda 1 kiçik dövlət müəssisəsi, 5 istifadəsiz qeyri-yaşayış sahəsi, 4 nəqliyyat vasitəsi, respublikanın digər şəhər, rayonları üzrə 4 istifadəsiz qeyri-yaşayış sahəsi və 2 yarımçıq tikili özəlləşdirilib.

Hərracda özəlləşdirilən kiçik dövlət müəssisəsi Bakının Xəzər rayonunda yerləşən 8 saylı mağazadır. Sahibkar investisiya yatırmaqla həmin obyektdə ərzaq mallarının pərakəndə satışını həyata keçirə bilər. Adıçəkilən əmlakın ümumi faydalı sahəsi 60 kv.m-ə yaxındır.

Bakı şəhəri üzrə özəlləşən qeyri-yaşayış sahəsi Nəsimi, Yasamal və Qaradağ rayonlarında yerləşir. Regionlar üzrə özəlləşən qeyri-yaşayış sahəsi isə Gəncə, Göyçay, Bərdə şəhərlərindədir. Gəncə şəhərində yerləşən, ümumi faydalı sahəsi 70 kvadratmetr olan əmlakdan ofis, xidmət obyekti kimi istifadə etmək olar. Göyçayda yerləşən, ümumi faydalı sahəsi 50 kv.m-ə yaxın olan obyekt də xidmət sahəsinə aid olmaqla investorlar üçün yaxşı gəlir mənbəyidir. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən növbəti hərrac mayın 8-də keçiriləcək. Hərraca investorları cəlb edə biləcək 178 əmlak çıxarılıb.

**Nəriman CAVADOV,
"Respublika".**

TƏKRAR

## Respublika Baytarlıq Laboratoriyası laboratoriya avadanlıqlarının satınalınması məqsədi ilə

## AÇIQ TENDER ELAN EDİR

**Lot 1.** Avadanlıqların alınması (Helium, Arqon, Azot qazı)

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon, 3123-cü məhəllə (Tender komissiyası, tel: 562-94-20; 562-83-13, səlahiyyətli şəxs Əflatun Bayramov) ala bilərlər.

**İştirak haqqı:**
**1-ci lot üzrə - 160 manat.**

Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:

*Respublika Baytarlıq Laboratoriyası*
*Büdcə təsnifatı kodu 142340*
*Büdcə səviyyə kodu Fond 7*
*VÖEN: 1000522461*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*Bankın VÖEN-i: 1401555071*
*Hesab: AZ11CTRE00000000000002577601*
*M/h: AZ41NABZ01360100000000003944*
*Bankın kodu: 210005*
*S.W.İ.F.T. BİK: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iddiaçının tam rəsmi adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (təklifin təminatı) (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-vergilərə və digər icbari ödənişlərə dair yerinə yetiriləsi və vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq orqandan arayış;*
*-iddiaçının son bir ildəki maliiyə haqqında bank arayışı;*
*-iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat və müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməli və təsdiq olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün qeyd olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 iyun 2018-ci il saat 17:00-dək Tender Komissiyasına təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti möhürlənmiş ikiqat zərfdə 20 iyun 2018-ci il tarixdə Tender Komissiyasına təqdim olunmalıdır.

Tender zərfləri 21 iyun 2018-ci il saat 16:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TƏKRAR

## Respublika Baytarlıq Laboratoriyası laborator diaqnostikumların satınalınması məqsədi ilə

## AÇIQ TENDER ELAN EDİR

**Lot 1.** Laborator diaqnostikumların satınalınması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon, 3123-cü məhəllə (Tender komissiyası, tel: 562-94-20; 562-83-13, səlahiyyətli şəxs Əflatun Bayramov) ala bilərlər.

**İştirak haqqı:**
**1-ci lot üzrə - 795 manat.**

Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:

*Respublika Baytarlıq Laboratoriyası*
*Büdcə təsnifatı kodu 142340*
*Büdcə səviyyə kodu Fond 7*
*VÖEN: 1000522461*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*Bankın VÖEN-i: 1401555071*
*Hesab: AZ11CTRE00000000000002577601*
*M/h: AZ41NABZ01360100000000003944*
*Bankın kodu: 210005*
*S.W.İ.F.T. BİK: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iddiaçının tam rəsmi adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (təklifin təminatı) (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-vergilərə və digər icbari ödənişlərə dair yerinə yetiriləsi və vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq orqandan arayış;*
*-iddiaçının son bir ildəki maliiyə haqqında bank arayışı;*
*-iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat və müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməli və təsdiq olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün qeyd olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 iyun 2018-ci il saat 17:00-dək Tender Komissiyasına təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti möhürlənmiş ikiqat zərfdə 20 iyun 2018-ci il tarixdə Tender Komissiyasına təqdim olunmalıdır.

Tender zərfləri 21 iyun 2018-ci il saat 16:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi cari təmir işlərinin görülməsi məqsədilə kotirovka sorğusu elan edir.**

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

REKLAM VƏ ELAN XİDMƏTİ

441-20-23

TƏKRAR

## Qazax Rayon Mərkəzi Xəstəxanası

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 4 Lot üzrə keçirilir:**
**Lot-1.** Avadanlıqların alınması
**Lot-2.** Bərk inventarların alınması
**Lot-3.** Yumşaq inventarların alınması
**Lot-4.** Digər maşın və avadanlıqların alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Qazax şəhəri, H.Əliyev pros. 172 (əlaqələndirici şəxs: A.O.Kazımov, telefon: 0279-5-22-93, (050) 522-71-80) ünvanından ala bilərlər.

**İştirak haqqı: hər Lot üzrə 40 (qırx) manat**

*Hesab: 32061019443660201136*
*VÖEN: 4200117891*
*Bank: "Kapital Bank"ın Qazax filialı*
*Kodu: 200361*
*VÖEN: 9900003611*
*Müxbir hesabı: 3628010000*
*S.W.İ.F.T ALLABAZ-2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 1 iyun 2018-ci il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11 iyun 2018-ci il saat 17:00-a qədər Qazax şəhəri, H.Əliyev pros. 172 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12 iyun 2018-ci il saat 11:00 tarixində Qazax şəhəri, H.Əliyev prospekti 172 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

# "Bakı Marafonu-2018"də qeydiyyat mayın 12-dək uzadılıb

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə mayın 13-də keçiriləcək "Bakı Marafonu-2018"də qeydiyyat prosesi uzadılıb. Bu barədə AZƏRTAC-a Fonddan məlumat verilib.**

Marafonda iştirak etmək istəyən 16 yaşdan yuxarı hər bir şəxs mayın 12-si saat 14:00-dək qeydiyyat məntəqələrinə və marafonun rəsmi saytına (www.baku.marathon.az) müraciət edə bilər.




**Qeydiyyat məntəqələrinin ünvanı:**
*"28 Mall"*
*"Gənclik Mall"*
*"Port Baku Mall"*

Qeydiyyat zamanı iştirakçı formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr, eyni zamanda, tələbə vəsiqəsinin surətini) təqdim etmək və iştirak üçün müəyyən olunmuş vəsaiti ödəmək lazımdır.

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün təyin olunmuş ödəniş məbləği 20 AZN-dir.

Korporativ qoşulanlar isə (hər şirkətdən minimum 5 iştirakçı olmalıdır) hər iştirakçıya görə 100 AZN ödəməlidir.

Marafonda tələbələrin iştirakı ilə bağlı vəsaitlər Heydər Əliyev Fondu tərəfindən qarşılandığından tələbələr qeydiyyat zamanı heç bir ödəniş etmir.

"Bakı Marafonu-2018"dən toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı layihəsinə yönəldiləcək.

Mayın 13-də keçiriləcək marafonun fəxri iştirakçıları sırasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, o cümlədən bir sıra tanınmış şəxslər var.

İdmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirmək məqsədi daşıyan "Bakı Marafonu-2018" layihəsinin eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsinin, Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil olunur. Layihənin icrasını isə Sport Marketing Group (SMG) şirkəti həyata keçirir.

"Bakı Marafonu-2018" Dövlət Bayrağı Meydanından start götürərək Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edəcək.

**AZƏRTAC**

## Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**
**Lot-1.** Əsaslı təmir

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi vasitəsilə həyata keçiriləcəkdir.

İştirak haqqı lot üzrə 100 (yüz) manat ödənilməlidir.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu S.Vurğun-145 ünvanında yerləşən Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyindən ala bilərlər.

**Əlaqələndirici şəxs:** Yusibov Ramin
**Əlaqə tel.:** (050) 4596291
**Təşkilat: Şəmkir rayonu Yerli Xəzinədarlıq Orqanı Şəmkir Rayon Maliyyə İdarəsi**
**VÖEN: 8500155391**
**Bank: Kapital Bankın Şəmkir filialı**
**Kodu: 200479**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: 0137010001944**
**S.W.İ.F.T BİK: AİI BAZ 2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—müəssisənin nizamnaməsi;*
*—vergi orqanından borcu olub-olmaması barədə arayış;*
*—DSMF-dən borcu olub-olmaması barədə arayış;*
*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatın surəti:*
*—bank arayışı, rekvizitlərlə birlikdə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tenderdə təklif təminatı (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 12 iyun 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti 22 iyun 2018-ci il tarixədək təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 25 iyun 2018-ci il tarixdə, saat 10:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran ərazi idarəsi tərəfindən Lənkəran şəhərinin Nəsimi küçəsində yerləşən və "VİTA" MMC-yə məxsus torpaq sahəsinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (seriya MH; № 0009574; reyestr № 802013003970; qeydiyyat № 220804973; qeydiyyat tarixi: 28 sentyabr 2008-ci il) və Torpaq sahəsinin planı və ölçüsü (AA 002439; reyestr № 802013003970; tərtib edilmə tarixi: 27 sentyabr 2008-ci il) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Texniki Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi, Azərbaycan dili və pedaqogika kafedrasının əməkdaşları dosent ÖZBƏY VƏLİ oğlu NADİROVUN vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-95-51;**
Humanitar siyasət redaksiyası: **539-26-18;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **539-26-18;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Ataş CƏBRAYILOV

● Çapa imzalanmışdır
05.05.2018